№02 (177) 31.01.2015

Qəzet 2008-ci il martın 15-dən çıxır

REGION PRESS

İctimai qəzet

“რეგიონ პრესი” საზოგადოებრივი გაზეთი

www.amm.ge

# Azərbaycanlıların Mədəniyyət Mərkəzində 20 Yanvar şəhidlərinin xatirəsi anıldı

*Şəhidlər ölmür, onlar heç vaxt unudulmurlar.*




Azərbaycanlıların Mədəniyyət Mərkəzində Azərbaycanın müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsini yad etmək üçün toplaşan çoxsaylı elm,mədəniyyət və təhsil işçiləri,gənclər, rəssmi şəxslər, şəhidlərin qohum-əqrəbaları və yaxınları, KİV nümayəndələri onların ruhunu ehtiramla anaraq, milli şüurun oyanışında və milli ideologiyanın formalaşmasında 20 yanvar faciəsinin dönüş nöqtəsinə çevrildiyini, müstəqillik tarixinə şanlı səhifə kimi daxil olduğunu diqqətə çatdırdılar. *(Davamı səh. 5-də)*

# Davosda İlham Əliyev Gürcüstanın Baş naziri ilə görüşüb

***Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycan Prezidenti İlham Əliyevi Tbilisiyə səfərə dəvət edib.***



Bu barədə Gürcüstan baş nazirinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir.

Qeyd olunur ki, İ.Qaribaşvili Azərbaycan Prezidenti ilə Davos İqtisadi Forumu çərçivəsində görüşüb. Görüş zamanı tərəflər iki ölkə arasındakı əlaqələrin inkişafını və strateji əməkdaşlıq məsələlərini müzakirə ediblər.

“İrakli Qaribaşvili ilə İlham Əliyev siyasi, iqtisadi, habelə mədəniyyət və energetika sahələrində ikitərəfli əməkdaşlığı dərinləşdirmək niyyətini ifadə ediblər”, - deyə məlumatda vurğulanıb.

# Vaxtanq Qomelauri Gürcüstanın yeni daxili işlər naziri təyin olunub



Gürcüstanın Daxili İşlər Nazirliyindən məlumat verilir ki, V. Qomelauri istefa vermiş Aleksandr Çikaidzenin birinci müavini vəzifəsində çalışıb.

V. Qomelauri Baş nazirin ona göstərdiyi etimadı doğruldacağını bildirib.

Qeyd edək ki, V. Qomelauri 2013-cü ilədək Bidzina İvanişvilinin şəxsi təhlükəsizlik xidmətinin rəisi olub.

# Gürcüstan “Eurovision-2015” mahnı müsabiqəsinin ilk yarımfinalında iştirak edəcək

Builki yarışmada 39 ölkə - Albaniya, Avstriya, Azərbaycan, Belarus, Belçika, Kipr, Çex Respublikası, Danimarka, Estoniya, Finlandiya, Fransa, Makedoniya, Gürcüstan, Almaniya, Yunanıstan, Macarıstan, İslandiya, İrlandiya, İsrail, İtaliya, Latviya, Litva, Malta, Moldova, Çernoqoriya, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Rusiya, San Marino, Serbiya, Sloveniya, İspaniya, İsveçrə, İsveç, Böyük Britaniya və Ermənistan iştirak edəcək.

Yarışmanın I və II yarımfinalı mayın 19 və 21-də, final mərhələsi isə mayın 23-də olacaq.

Yanvarın 26-da Vyanada 60-cı yubiley “Eurovision-2015” Beynəlxalq mahnı müsabiqəsinin I və II yarımfinal mərhələlərində çıxış edəcək ölkələr müəyyənləşmişdir. Gürcüstan ilk yarımfinalda, Azərbaycan isə ikinci yarımfinalda iştirak edəcək.

Bu müsabiqə “Vinner Ştatxall” stadionunda keçiriləcək. Miryam Vaykselbraun, Elis Tumler və Arabella Kisbauera müsabiqənin aparıcısı qismində çıxış edəcəklər.




# Avtomobillərə texniki baxış 2017-ci ilədək təxirə salınıb

***Ötən sayımızın I səhifəsində “Məcburi texniki baxış bərpa olundu” adlı yazıdan sonra Gürcüstan İqtisadiyyat və Sabit İnkişaf Nazirliyindən verilən son məlumata görə, avtomobillərə məcburi texniki baxış 2017-ci ilədək təxirə salınıb.***



“Biz perspektivdə avtomobillərə texniki baxışın keçirilməsini təmin edəcəyik. Bunu 2 il müddətinə təxirə saldıq ki, yeni strategiya işlənib hazırlansın”, - deyə nazir vurğulayıb.



**Xalq şairi Vaqif Səmədoğlu dünyasını dəyişib**

Səh.2-də

**Yubiley**



**Zəlimxan Yaqub 65**

Səh.6-7-də

**Van Qoq Qarayazıda**

*(Azər Şahismayıloğluna məhi-taban məktub)*



İbrahimxəlil

Səh.8-də

**Gürcüstan parlamentinin komitə sədri:**

***"Əcnəbi vətəndaşlar Gürcüstanda 20 hektaradək torpaq ala bilərlər"***

Səh.9-da

# E L A N

Təqaüdlə bağlı müraciət edən tələbələr aşağıdakı sənədləri fevral ayının 20-ə kimi AMM-ə təqdim etməlidirlər:

*1. Təhsil haqqında arayış*
*2. Şəxsiyyət vəsiqəsinin əsli*
*3. Qış semestrinin qiymət vərəqəsi*
*4. 2 ədəd 3X4 ölçülü foto-şəkil*
*5. AMM-in adına ərizə*

Məlumat üçün bir daha nəzərinizə çatdırırıq ki, təqaüdlər ilk növbədə, Gürcüstanın akkreditə olunmuş ali təhsil ocaqlarında oxuyan, təhsildə yüksək göstəricilər əldə edən və imkansız ailələrdən olan tələbələrə ayrılacaq.

Əlaqə telefonları:
**0357 22 29 29**
**555 355 127; 593 656 130**
**Azərbaycanlıların Mədəniyyət Mərkəzi**

# Xalq şairi Vaqif Səmədoğlu dünyasını dəyişib

***Azərbaycanın Xalq şairi Vaqif Səmədoğlu yanvarın 28-də səhər saatlarında dünyasını dəyişib.***



Uzun müddət onkoloji xəstəlikdən əziyyət çəkən şair bir neçə dəfə İsraildə müalicə kursu keçib.

Vaqif Səmədoğlu 1939-cu il iyunun 5-də Bakı şəhərində, məşhur Azərbaycan şairi Səməd Vurğunun ailəsində anadan olub. Bülbül adına musiqi məktəbində, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil alıb. Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında incəsənət redaksiyasının müdiri (1968-1971), "Oğuz eli" qəzetinin baş redaktoru (1992-1994) vəzifələrində çalışıb.

Çaykovski adına Moskva Konservatoriyasında ixtisas kursu keçən V.Səmədoğlu bir müddət Azərbaycan Dövlət Konservatoriyasında fortepiano üzrə ixtisas müəllimi kimi çalışıb. O, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kino-aktyor teatrının ədəbi hissə müdiri vəzifəsində işləyib. Poeziya, teatr və dramaturgiya sahəsində də ciddi fəaliyyət göstərib. "Yeddi şeir" adlı ilk mətbu əsəri 1963-cü ildə "Azərbaycan" jurnalında dərc olunub. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış edib.

Şair, dramaturq, publisist Vaqif Səmədoğlu 1970-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimi (1989), Azərbaycanın Xalq Şairi (1999), Milli Məclisinin deputatı (2000, 2005), "Nəsimi" mükafatı laureatı (2014) olub.

Yaratdığı ölməz sənət inciləri ilə insan-cəmiyyət münasibətlərinin dərinliklərinə nüfuz etməyi bacaran Vaqif Səmədoğlu irsi hər zaman öz aktuallığını qoruyub saxlayacaq və daima ədəbiyyatsevərlər tərəfindən yüksək qiymətləndiriləcəkdir.

Bildiririk ki, mərhum V. Səmədoğlu I Fəxri Xiyabanda, atası Xalq şairi Səməd Vurğunun məzarının yaxınlığında dəfn olunub.

# Prezident İlham Əliyev "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı təsdiq edib



Azərbaycan Prezidenti İlham Əliyev gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı təsdiq edilməsi ilə bağlı Sərəncam imzalayıb.

Sərəncama əsasən, Gənclər və İdman Nazirliyinə Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində əlaqələndirməni təmin etmək və onun həyata keçirilməsi ilə bağlı görülən işlər barədə ildə bir dəfədən az olmayaraq Azərbaycan Prezidentinə məlumat vermək tapşırılıb.

Qeyd edək ki, Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan ölkəmizin mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır.

# Aydın Əliyev:
## *Gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi üçün bəzi ölkələrlə danışıqlar aparılır*

***(Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin gömrük əməkdaşlarının peşə bayramı ərəfəsində Trend Beynəlxalq İnformasiya Agentliyinə müsahibəsindən çıxarış.)***



**- Gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi üçün bəzi ölkələrlə (İran və Gürcüstan) vahid informasiya sisteminin yaradılması sahəsində danışıqlar aparılırdı. Belə sistemin yaradılması nə qədər məqsədə uyğundur və hansı maneələr mövcuddur?**

- Gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi üçün bəzi ölkələrlə (İran,Gürcüstan,Özbəkistan və Rusiya Federasiyası) vahid informasiya sisteminin yaradılması sahəsində deyil, bir dövlətin sərhədini keçərək o biri dövlətin ərazisinə yola düşən mal və nəqliyyat vastələri haqqında ilkin məlumat mübadiləsinin aparılması sahəsində danışıqlar aparılır. Bu layihələrin həyata keçirilməsi sərhəddə dayanma müddətini minimuma endirir, gömrük qaydalarının pozulması riskini azaldır və s. Buna görə də tərəflərin hər biri üçün faydalıdır. Yaxın zamalarda layihələrin reallaşmasına başlanacaqdır və bu işin həyata keçirilməsində heç bir manеə yoxdur.

# Avropa Komissiyası Gürcüstana 13 milyon avro həcmində qrant ayırıb



Avropa Komissiyası Gürcüstana 2013-cü ilin avqust ayında təsdiq edilmiş 46 milyon avro maliyyə yardımının ilk hissəsi çərçivəsində 13 milyon avro məbləğində qrant ayırıb. ABu barədə Avropa İttifaqının Gürcüstan nümayəndəliyi mətbuata şərh verib. Şərhə görə, yaxın gələcəkdə kreditlər şəklində veriləcək 10 milyon avro da bu ödənişə əlavə olunacaq.

Məlumata görə, 2015-ci ilin ortalarında Gürcüstana ayrılacaq yardımın ikinci hissəsi 23 milyon avro təşkil edəcək, bunun 10 milyonunun qrant və 13 milyonunun isə kreditlər formasında verilməsi planlaşdırılıb.

# Zurab Jvaniya məktəbinin məzunlarına sertifikatlar verilib

***Zurab Jvaniya adına Dövlət İdarəçiliyi Məktəbinin Marneuli bölgə tədris mərkəzində, dövlət dilinin intensiv təlim kursunun dinləyicilərinə kursu müvəffəqiyyətlə bitirmələrini təsdiqləyən sertifikatlar verildi.***



Sertifikatların təqdimolunma mərasimində Marneuli rayon icra başçısı Merab Topçişvili və özünüidarənin rəhbər şəxsləri iştirak etdilər.

İcra başçısı Jvaniya məktəbinin nümayəndələrinə sərf etdikləri əməyə görə dərin təşəkkürünü bildirdi, məzunlara isə işlərində müvəffəqiyyətlər arzuladı. Qeyd etmək lazımdır ki, Zurab Jvaniya adına Dövlət İdarəçiliyi Məktəbində müntəzəm olaraq dövlət dili tədris olunur. Kurslarda Marneuli özünüidarə əməkdaşları da iştirak edirlər.

# Ədəbiyyat üzrə bilik yarışı

Yanvarın 24-də Marneuli Gənclər Mərkəzində ("Çay evi") ədəbiyyat fənni üzrə ikinci intellektual yarış keçirildi. Yarışda 5 komanda - Qırıxlı, Nəzərli, (Qardabani rayonu), Böyük Muğanlı, Marneuli 8 saylı məktəb və Alget kənd komandaları iştirak edirdi. Yekunda 21 xal toplayaraq Alget kənd komandası qalib gəlib.

Qalib komandanı yarışa Alget ictimai məktəbinin dil-ədəbiyyat müəllimi Xumaya Nəsibova hazırlayıb.

Yarışda fərqlənən şagirdlərdən Aytən Ataxalilova, Günel Ömərova, Günel Dursunova, Ləman Yunisova, Aytac Nəbiyeva və Nərgiz Bayramova hədiyyələrlə mükafatlandırılıb.




# Tbilisidə NATO-nun təlim-tədris mərkəzi açılacaq

***Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Vaxtanq Kapanadze bu ölkədə akkreditə olunmuş hərbi attaşelər və NATO-nun Tbilisidəki ofisinin nümayəndəsi ilə görüşüb.***




Azərbaycan nümayəndəsinin də iştirak etdiyi görüşdə Gürcüstan Silahlı Qüvvələrində 2014-cü ildə həyata keçirilmiş islahatlar və yeniliklər barədə məlumat verilib. Bildirilib ki, Gürcüstan Silahlı Qüvvələrinin əməkdaşları dünyada gedən antiterror əməliyyatlarında fəal iştirak edirlər. Ölkəsinin NATO ilə əməkdaşlığından bəhs edən general-mayor deyib ki, yaxın vaxtlarda Tbilisidə NATO-nun təlim-tədris mərkəzi açılacaq.

Baş Qərargah rəisi Gürcüstanın qarşılaşdığı problemlərdən, xüsusən də ərazi bütövlüyünün pozulması faktından, eləcə də regionda və dünyada baş verən hadisələrdən danışıb.

V.Kapanadze, həmçinin Cənubi Qafqaz regionunda sülhə və təhlükəsizliyə qarşı olan ciddi təhdidlərə diqqəti cəlb edib, Gürcüstanın bölgədə sülhün tərəfdarı olduğunu bildirib.

Görüşdə Ukraynada baş verən hadisələr, İŞİD-in təhdidləri, bir çox ölkələrdən, o cümlədən Gürcüstan da daxil olmaqla digər Cənubi Qafqaz ölkələrindən gənclərin aldadılaraq Suriyaya aparılmalarından narahatlıq ifadə olunub.

Qarşılıqlı fikir mübadiləsi şəraitində davam edən görüşdə bütün dövlətlərin ərazi bütövlüyünə qarşı yönəlmiş hallara, terrora və mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizənin önəmi vurğulanıb.

# Azərbaycan və Gürcüstan nəqliyyat sahəsində əməkdaşlığı müzakirə ediblər

***Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov arasında keçirilən görüşdə nəqliyyat sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.***

Gürcüstanın hökumət başçısının mətbuat xidmətindən verilən məlumata görə, tərəflər nəqliyyat sahəsində ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edib, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu magistralı layihəsinə xüsusi diqqət ayırıblar.



Z.Məmmədov Gürcüstanın iqtisadiyyat naziri ilə birlikdə Kartsaxidə BTQ dəmir yolunun tikintisi layihəsi çərçivəsində sınaq qatarının buraxılışı ilə bağlı rəsmi mərasimdə iştirak edib.

## Bakı-Tiflis-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsinin təqdimatı keçirilib

Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və Gürcüstan Baş nazirinin müavini, iqtisadiyyat və sabit inkişaf naziri Georgi Kvirikaşvili Türkiyə ilə sərhəddə Bakı-Tiflis-Qars dəmir yolu layihəsi çərçivəsində tikilən Kartsaxi stansiyasına səfər ediblər.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, hər iki nazir dəmir yolu xəttində tikintinin vəziyyəti ilə tanış olublar, sonra Kartsaxidə sınaq qatarının xəttə buraxılışının açılışı həyata keçirilib. Gürcüstan iqtisadiyyat və sabit inkişaf nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, nazirlər BTQ dəmir yolu xəttinin 2015-ci ildə istismara veriləcəyini vurğulayıblar. Georgi Kvirikaşvili çıxışında dəmir yolunun Gürcüstan hissəsinin 180 kilometr sahəsinin başa çatdığını bildirib. Nazir layihə iştirakçılarına iqlim dəyişikliklərinə baxmayaraq bütün işləri keyfiyyətlə gördükləri üçün təşəkkür edib və əmin edib ki, dəmir yolu layihəsi ilin sonunadək istismara veriləcək. "Əməkdaşlarımız layihəni təhvil vermək üçün qış aylarında da yerli tərəfdaşlarımızla birgə çalışacaqlar," deyə Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov çıxışında bildirib.

Qeyd edək ki, Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu xəttinin təməli 2007-ci il noyabrın 7-də Marabda kəndində qoyulub. Hazırda Gürcüstan ərazisində dəmir yol hissəsinin inşası başa çatdırılıb. BTQ layihəsinin Gürcüstan ərazisindəki dəmir yolunun ümumi uzunluğu 245 kilometrdən çoxdur. Bu xəttin 183 kilometri əsas yol hesab olunur. BTQ dəmir yolu layihəsinin Türkiyə ərazisindəki xəttinin uzunluğu 74 kilometrdir.

## Azərbaycan Gürcüstanın xarici ticarət tərəfdaşları sırasında ikinci yerdədir

Ötən il Gürcüstandan Azərbaycana ixrac olunan malların həcmi 2013-cü illə müqayisədə 23 faiz (165,5 milyon ABŞ dolları) azalaraq 544,4 milyon dollar təşkil edib. Bu, Gürcüstanın ümumi ixracatının 19 faizini təşkil edib.

Gürcüstan Milli Statistika İdarəsinə (Qruzstat) istinadən xəbər verilir ki, keçən il ölkədən Azərbaycana 268 milyon dollar həcmində avtomobil ixrac olunub. Bu da 2013-cü illə müqayisədə 133,1 milyon dollar azdır. Hesabat dövründə Azərbaycana 2013-cü illə müqayisədə 17 milyon dollar çox, 57,3 milyon dollar həcmində armatur ixrac olunub.

Qruzstatın məlumatına görə, 2014-cü ildə Azərbaycandan da Gürcüstana ixracın həcmində azalma müşahidə olunub. Ötən il Azərbaycandan Gürcüstana 638 milyon dollar həcmində mal ixrac olunub və bu, 2013-cü illə müqayisədə 2,3 faiz azdır.

Ötən il Gürcüstan 1,4 milyon tondan çox, təqribən 288 milyon dollar neft qazları və təbii qazı idxal edib. Bu, 2013-cü illə müqayisədə 27,1 milyon dollar çoxdur.

Hesabat dövründə Azərbaycandan Gürcüstana 2013-cü illə müqayisədə 35 milyon dollar az, yəni 241 milyon dollar həcmində (286 min ton) neft və neft məhsulları ixrac olunub.

Bununla belə, Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşları sırasında ikinci yerdədir. Gürcüstanın Azərbaycan ilə xarici ticarət dövriyyəsinin həcmi 2014-cü ildə 1 milyard 182 milyon dollardan çox olub, bu da 2013-cü illə müqayisədə 11,3 faiz azdır.

Azərbaycan ilə ticarət dövriyyəsi Gürcüstanın xarici ticarətinin 10,3 faizini təşkil edib.

# STOP C - Hepatit C ilə bağlı maarifləndirmə tədbiri və təbliğat-təşviqat kampaniyası

***Marneuli Mülki Məşğulluq Mərkəzində Hepatit C ilə bağlı məlumat xarakterli görüş keçirilib.***

Bildiririk ki, 2015-ci il Gürcüstanda Hepatit C ilə mübarizə ili elan olunmuşdur. Fevral ayında başlayacaq layihə xəstəliyin qarşısının alınması, xəstəliyə yoluxmuş insanların dərmanlarla təmin edilməsi və yüksək keyfiyyətli xidmətlərin təklifini nəzərdə tutur. Proqrama Gürcüstanın bütün vətəndaşları ilə yanaşı məhbuslar da cəlb olunacaq.

3 il ərzində Gürcüstanın Hepatit C ilə mübarizədə qalib gəlməsi nəzərdə tutulur. Gürcüstanın Səhiyyə naziri David Sergeyenko xəstəliyə qalib gəlmək üçün cəmiyyəti maksimal dərəcədə fəal olmağa səsləyir.

Müzakirədə Xəstəliklərə Nəzarət və İctimai Səhiyyə Mərkəzinin rəhbəri Eter Lamparadze, həkim-infeksionist Ana Miskalişvili, həmçinin tələbələr, fəal gənclər, Marneuli Qadın Klubunun üzvləri, QHT nümayəndələri və başqa maraqlanan şəxslər iştirak ediblər.



Görüş Marneuli küçələrində aksiya keçirərək, əhaliyə hepatit C ilə bağlı broşuraların paylanması ilə bitib. Hepatit C ilə bağlı təbliğat-təşviqat kampaniyasına həmçinin, hökumət rəsmiləri və cəmiyyətin fəal üzvləri də qoşulub.

# Gürcüstanın ali məktəblərinin tələbələri Tbilisinin mərkəzində etiraz aksiyası keçiriblər

***Gürcüstanın ali məktəblərində təhsil alan azərbaycanlı və gürcü tələbələr, ictimaiyyətin, dini icmaların nümayəndələri yanvarın 29-da parlamentin Tbilisidəki binasının qarşısında aksiya keçiriblər.***

Fransada Məhəmməd Peyğəmbərin karikaturasının yayılmasına və İslam dininin təhqir olunmasına etiraz edən aksiya iştirakçıları "Bütün dinlərə hörmət olunmalıdır", "İslam barışıq və sülh dinidir", "Bütün insanlar qardaşdırlar", "Heç bir terrorçunun milləti və ya dini mənsubiyyəti yoxdur", "İslam dinini təhqir edənlər xristian dininin də düşmənləridirlər" və s. şüarlar səsləndiriblər.

Aksiyada iştirak edən gürcü tələbə Quram Adomeşi deyib: "Biz dünyanın sülhsevər insanları kimi müsəlman qardaşlarımızı müdafiə edirik. İslam dininə və Məhəmməd Peyğəmbərə qarşı radikal çıxışları qətiyyətlə pisləyirik. Bu cür hallar yolverilməzdir. Dini mənsubiyyətə görə insanların təhqir və təqib olunması bizim hamımız üçün pisdir. Hesab edirik ki, İslam dinini təhqir edənlər elə xristian dinini də təhqir edirlər. Ona görə də biz müsəlman qardaşlarımızı müdafiə edirik və digərlərini də qarşılıqlı hörmətə səsləyirik".




Yüzdən çox tələbənin iştirak etdiyi aksiya insidentsiz başa çatıb.

# Azərbaycanlı həkimlər Tbilisidə vərəmlə mübarizəyə həsr olunmuş beynəlxalq konfransda iştirak ediblər

***Tbilisidə vərəm xəstəliyi və bu xəstəliklə mübarizə üsullarına həsr olunmuş beynəlxalq konfrans keçirilib.***

Konfransda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru Elcan Məmmədbəyov və institutun həkim-radioloqu Züleyxa Sərdarova iştirak ediblər.



Z.Sərdarova bildirib ki, iki gün davam edən konfransda vərəmin səbəbləri və ağır nəticələri, eləcə də bu xəstəliyin düzgün müayinəsi və müalicəsi istiqamətində dünyanın müxtəlif ölkələrində həyata keçirilən tədbirlərdən söhbət açılıb. Vaxtilə Azərbaycanda işləmiş ABŞ-ın Milli İnfeksion və Allergiya İnstitutunun rəhbəri Aleks Rosentalın və başqa alimlərin mühazirələri dinlənilib.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən konfransda azərbaycanlı həkimlər ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən islahatlardan, o cümlədən vərəmlə mübarizə sahəsində görülən işlərdən danışıblar. Konfrans iştirakçıları, həmçinin Gürcüstanın bir sıra qurum, institut və laboratoriyalarına baş çəkib, bu ölkədə səhiyyə sahəsində keçirilən islahatlarla tanış olublar.

Beynəlxalq konfransda 10-dan çox ölkənin həkim və mütəxəssisləri iştirak ediblər.

# Gürcüstanın daxili işlər naziri istefa verib

***Gürcüstanın daxili işlər naziri Aleksandr Çikaidze istefa verib.***



APA-nın Gürcüstan bürosunun məlumatına görə, bu barədə bəyanat yayan nazir bildirib ki, istefasına səbəb 2006-cı ildə Gürcüstanda keçirilən xüsusi əməliyyat zamanı öldürülən Zurab Vazaqaşvilinin ölümündə iştirakçı olanları gizlətməkdə ittiham edilməsi olub.

"Baş nazirə istefa barədə müraciət etmək istəyirəm. Guya mən Zurab Vazaqaşvilinin ölümündə iştirakçı olan adamları gizlədirəm. Bu ittihamı yalan hesab edirəm və mənəvi məsuliyyət hiss edib vəzifəmdən istefa verirəm" - deyə nazir vurğulayıb.

Gürcüstan DİN-in mətbuat xidmətindən APA-ya verilən açıqlamada Yuri Vazaqaşvili və onun oğlu Zurab Vazaqaşvilinin ölümləri haqqında cinayət işi qaldırıldığı və sənədlərin hamısının Gürcüstanın Baş Prokurorluğuna verildiyi bildirilib: "Bütün suallara prokurorluq cavab verir" - deyə mətbuat xidmətinin əməkdaşı Mziya Çitiaşvili qeyd edib.

Xatırladaq ki, yanvarın 20-də Kaspi rayonunun Karub kəndində hüquq müdafiəçisi Yuri Vazaqaşvili oğlu Zurab Vazaqaşvilinin qəbrini ziyarət edərkən törədilən partlayış nəticəsində öldürülüb. Faktla bağlı prokurorluq Gürcüstan Cinayət Məcəlləsinin 109-cu maddəsi (qəsdən adam öldürmə) ilə cinayət işi açıb. Gürcüstanın baş naziri İrakli Qaribaşvili tezliklə bu cinayətin açılmasını tələb edib.

Qeyd edək ki, Zurab Vazaqaşvili 2006-cı ilin mayın 2-də polis qrupları tərəfindən həyata keçirilən xüsusi əməliyyat zamanı öldürülüb.



## Gürcüstanda qadınlar kişilərdən çoxdur

***Bu il yanvarın 1-ə olan vəziyyətə görə, Gürcüstanda əhalinin sayı 4.490.500 nəfər olmuşdur. Onun 2.141.400 nəfəri kişi, 2.349.100 nəfəri qadındır. (Yəni qadınlar kişilərdən 207.700 nəfər çoxdur).***

***2014-cü il yanvarın 1-ə olan məlumata görə, 57.600 uşaq 1 yaşa qədər, 163.600 nəfər isə 80 yaşdan yuxarıdır. Bu məlumatları Gürcüstan Milli Statistika Xidməti yaymışdır.***

# Azərbaycanın və Türkiyənin baş diplomatları görüşdülər

*Azərbaycan, Türkmənistan və Türkiyə xarici işlər nazirlərinin bu gün Aşqabadda keçirilən üçtərəfli görüşü çərçivəsində nazir Elmar Məmmədyarov Türkiyənin xarici işlər naziri Mövlud Cavuşoğlu ilə görüşdü.*



Görüş zamanı iki ölkə arasındakı münasibətlərin cari səviyyəsini yüksək qiymətləndirən tərəflər Azərbaycan ilə Türkiyə arasındakı ikitərəfli əlaqələrin dostluq və qardaşlıq xarakteri daşıdığını xüsusi vurğuladılar.

2015-ci ilin 14-15 yanvar tarixlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyəyə səfəri zamanı müxtəlif səviyyələrdə keçirilmiş görüşləri ikitərəfli münasibətlərin daha da inkişafı baxımından yüksək qiymətləndirdilər.

Görüş zamanı tərəflər Azərbaycan, Türkmənistan və Türkiyə xarici işlər nazirlərinin iştirakı ilə üçtərəfli görüşün keçirilməsinin regional əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini vurğuladılar.

Görüş zamanı həmçinin regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Hindistanla ABŞ axır ki, razılığa gəldi

*Hindistan və ABŞ dinc məqsədli atom sahəsində əməkdaşlıq barədə razılıq əldə ediblər.*



Bu fikir ABŞ Prezidenti Barak Obama və Hindistan Baş naziri Narendra Modinin danışıqların nəticələrinə əsasən keçirdikləri birgə mətbuat konfransında səsləndirilib.

"Dnc məqsədli atom sahəsindəki əməkdaşlığa dair razılaşma danışıqlarımızın əsas diqqət mərkəzində idi. Müqavilənin imzalanmasından altı il keçdikdən sonra biz bu sahədə kommersiya əməkdaşlığı istiqamətinə doğru hərəkət edirik", - deyə Modi bildirib.

Xatırladaq ki, daha əvvəl ABŞ və Hindistanın mövqeləri iki məsələ üzrə ayrılırdı. ABŞ təkid edirdi ki, Hindistana nəql olunan nüvə yanacağının idarəsinə nəzarət etsin, Hindistan tərəfi isə bununla razılaşmırdı. Lakin Modi ilə danışıqlar zamanı Obama nüvə yanacağına total nəzarət haqqındakı şərtləri ləğv etməyə razılıq verib.

Dinc atom sahəsindəki əməkdaşlığa digər maneə 2010-cu ildə qəbul olunmuş nüvə itkisinə görə vətəndaş məsuliyyəti haqqında Hindistan qanunu idi. Həmin qanun nüvə insidenti hallarında AES-in bütün istifadə müddəti ərzində yanacaq tədarükçüsünün məsuliyyətini nəzərdə tutur. Tərəflər bu bənd üzrə də fikir ayrılığını aradan qaldıra biliblər.

# Obamanın 24 aprel seçimi

*ABŞ Prezidenti Barak Obamanın bu il aprelin 24-də Yerevan və Ankara arasında hansı seçim edəcəyi səbirsizliklə gözlənilir.*



2015-ci ilin həmin tarixində Ermənistan qondarma "soyqırım"ın, Türkiyə isə şanlı Çanaqqala zəfərinin 100 illiyini qeyd edəcək. Hər iki tərəf Obamaya dəvət göndərib. Ağ ev isə məsələ ilə bağlı hələ qərar verməyib, yaxud da qərarını verib, amma açıqlamaq istəmir.

Obama qarşısında bir neçə variant var. Yerevana və ya Ankaraya getmək, yaxud hər iki tədbirdə iştirak etmək və ya ümumiyyətlə, heç birinə qatılmamaq.

ABŞ Prezidentinin qondarma "soyqırım" tədbirlərinə qatılacağı inandırıcı görünmür. Obama 1915-ci il hadisələri ilə əlaqədar ənənəvi 24 aprel çıxışında əvvəlki prezidentlər kimi soyqırım ifadəsini işlətməyib. Bu baxımdan ABŞ-ın 44-cü Prezidentinin Yerevana səfəri ən azından məntiqsiz görünür. Üstəlik, Obamanın bu seçimi onsuz da Qərblə ziddiyyətlər içində olan Türkiyəni ABŞ-dan daha da uzaqlaşdıracaq.

Bəs Ankara? Bu variant da istisna edilir. Ankara seçimi Obamanı ölkəsində ermənipərəst qüvvələr tərəfindən ciddi təzyiqə məruz qoyacaq. Digər tərəfdən, bu, təmsil etdiyi Demokratlar Partiyasının qarşıdakı seçkilərdə səs itirməsinə səbəb ola bilər. Bu addım Ermənistanda ABŞ-ın nüfuzunu daha da aşağı sala bilər.

Bəlkə də Obama hər iki tərəfə jest edərək Ermənistan və Türkiyəyə səfər etməyi düşünür. Hadisələrin bu cür ssenarisi ağlabatan deyil. İki tərəf də məmnun etmək planı əslində birinci variantın başqa formasıdır və bu durumdan yalnız Ermənistan qazanclı çıxır. Yəni Obamanın Yerevana gedib qondarma "soyqırım"ı de-fakto tanımasından sonra Türkiyəyə getməsinin (yaxud əksinə) bir mənası qalmır.

Yerdə qalır, ümumiyyətlə, dəvətləri cavabsız qoymaq. Çox güman ki, ABŞ lideri bu hüququndan istifadə edəcək. Ümumiyyətlə, səfər etməmək seçimi bir növ "24 aprel status-kvosu"nu saxlamaq deməkdir. Yerevan və Ankaraya sərf etməyən bu variant ABŞ-ın tərəflər arasında balansı qorumaq siyasətinə xidmət etmiş olacaq. Lakin bu variantın keçərli olacağı suallar doğurur.

# İran da dollardan imtina etdi

*İran hökuməti ticarət əməliyyatlarında dollar əvəzinə Türkiyə lirəsindən istifadə edəcək.*

Bu açıqlama ilə İran Mərkəzi Bank sədrinin müavini Qulaməli Kamyab çıxış edib.

Onun sözlərinə görə, türk lirəsindən savayı əməliyyatlarda çin yuanı, rus rublu, Koreya vonu və avro kimi digər pul vahidlərindən də istifadə ediləcək:

"Bir sıra ölkələrlə valyuta mübadiləsində razılaşma əldə etmişik. İran ən böyük ticarət ortaqlarından biri olan Çin ilə 2012-ci ildən bəri dollar yerinə Çin yuanı istifadə edir".



Xatırladaq ki, Türkiyə ilə İran arasında milli pul vahidlərinin istifadə edilməsi ilə bağlı müzakirələrin müsbət nəticə verdiyi bildirilib.

# Məşhur müğənni vəfat edib



Məşhur yunan müğənni Demis Russos Afinada 69 yaşında vəfat edib. Ölümün səbəbləri hələlik bəlli deyil. Əsl adı Artemios Ventouris Roussos olan müğənni 1946-cı ildə Misirin İsgəndəriyyə şəhərində yunan ailəsində anadan olub. 1950-ci illərin ortalarında ailə Yunanıstana köçüb. D. Russos solo yaradıcılığa 1971-ci ildə başlayıb və həmin il "On The Greek Side Of My Mind" adlı ilk albomunu buraxıb. 1975-ci ildə onun 3 plastik valı 10 ən yaxşı albomun siyahısında yer tutub. Sənətçi yaradıcılığı boyunca 29 albom buraxıb.

O, 1985-ci il iyunun 14-də ərəb terroçular tərəfindən qaçırılmış təyyarənin sərnişinlərindən biri olub. Terrorçular hətta onun doğum gününü də təyyarədə qeyd ediblər.

Demis Russosun 3 evliliyindən 2 uşağı var.

## Qorbaçovdan xəbərdarlıq:
# *Rusiya ilə ABŞ arasında müharibə başlaya bilər*

SSRİ-nin sabiq prezidenti Mixail Qorbaçov Rusiya və ABŞ arasında açıq-aşkar "soyuq müharibə"nin getdiyini və bunun "qaynar müharibə"yə çevrilə biləcəyini bəyan edib.



M. Qorbaçov bildirib ki, Vaşinqton özünün triumfator ideyasını gerçəkləşdirməyə çalışmaqla, Moskvanı qarşıdurmaya sövq edib.

"Təəssüf ki, bu "soyuq müharibə"nin "qaynar"a çevrilməyəcəyini əminliklə deyə bilmərəm. Qorxuram ki, onlar (amerikalılar-red.) risk edə bilərlər", – deyə o qeyd edib.

M. Qorbaçov Avropa İttifaqının Rusiyaya qarşı sanksiyalarına da toxunub: "Bu gün ABŞ və Avropadan ancaq Rusiyaya qarşı sanksiyalar barədə eşidirsən. Onlar başlarını tam itiriblər?".

# Rusiyanın səsvermə hüququ donduruldu

*Avropa Şurası Parlament Assambleyasının (AŞPA) plenar iclasında Rusiya nümayəndə heyətinin səlahiyyətlərinin təsdiq edilməsi məsələsinə baxılıb.*




Bu məsələ ilə bağlı qurumun Monitorinq Komitəsindən Stefan Şennaxın məruzəsi, Nizam-İntizam Komitəsindən isə Hans Frankenin hazırladığı xüsusi rəy müzakirə olunub. Xatırladaq ki, AŞPA-nın ötən ilin aprelində keçirilmiş yaz sessiyasında qurum Rusiya nümayəndə heyətinin səsvermə səlahiyyətlərini 2014-cü ilin sonuna qədər dondurub. Bu sessiya ərzində isə bir qrup parlamentar Rusiyaya qarşı sanksiyanı daha bir il müddətinə uzadılması təklifi ilə çıxış edib.

İclasda Rusiyaya qarşı daha sərt sanksiyaların tətbiqi edilməsi ilə bağlı da təkliflər səsləndirilib. Çıxış edən avropalı parlamentarlar Rusiyanın ötən il Krımı işğal etdiyini və bununla da beynəlxalq hüquq normalarını pozduğunu bildiriblər.

İsveçrəli parlamentar Andres Qross isə sərt qərarların heç bir nəticə verməyəcəyini, Rusiya ilə dialoq aparılmasının tərəfdarı olduğunu deyib. Parlamentar Pedro Aqramunt isə Krımda tatarların çox acınacaqlı vəziyyətdə olduğunu qeyd edib, Rusiyanı bu məsələnin həlli üçün addımlar atmağa çağırıb.

Bundan başqa, Assambleya üzvləri Rusiyanı Ukraynanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Nadiya Savçenkonu dərhal azad etməyə çağırıblar. Müzakirələrdən sonra Rusiya tərəfinin hesabatla bağlı irəli sürdüyü əlavə və dəyişikliklərin heç biri qəbul olunmayıb. Rusiyaya qarşı olan təkliflərin bir çoxu isə hesabata daxil edilib.

Rusiyanın AŞPA-dakı nümayəndə heyətinin səsvermə hüququ qurumun aprel sessiyasına qədər dondurulub. Həmçinin Rusiya nümayəndə heyətinin Assambleyanın Daimi Komitəsi və Sədrlər Komitəsindəki iştirakı dayandırılıb.

Qətnamə layihəsi bütünlüklə səsə qoyulub, 160 səs lehinə, 42 səs əleyhinə olmaqla qəbul olunub.

Bildiririk ki, Azərbaycan tam heyəti ilə səsvermədə Rusiyanın səs hüququndan məhrum edilməsinə qarşı olub. Bundan əlavə qərarın qəbul edilməsinə Avstriya, İsveç, Niderland və Türkiyədən olan deputatlardan bir çoxu qarşı çıxıb.




**1714** — I Pyotr Rusiyada ən qədim muzey sayılan Kunstkameranı təsis etdi.

**1865** — Dmitri Mendeleyev "Spirtin su ilə birləşmələri" adlı dissertasiyasını müdafiə etdi.

**1946** — Yeni konstitusiyaya görə, Yuqoslaviya 6 respublikadan ibarət federasiyaya çevrildi.

**1950** — ABŞ Prezidenti Harri Trumen hidrogen bombası planını açıqladı.

**1990** — Moskvada ilk "McDonald's" kafesi açıldı.

# Kral Abdullah 90 yaşında vəfat etdi

O, dünyanın neft-qazla ən zəngin ölkələrindən olan Səudiyyə Ərəbistanını 1996-cı ildən idarə edirdi. Bir neçə həftə idi ki, kral ağciyər infeksiyası ilə xəstəxanaya yerləşdirilmişdi. Kral Abdullahın varisi onun atabir qardaşı 79 yaşlı şahzadə Salmandır. Ölkəni idarə etdiyi 18 ildə Kral Abdullah bir neçə mühüm islahat aparmışdı. 150 yerlik Şura Məclisinə ilk dəfə olaraq 30 qadın təyin etmişdi. Bu il isə qadınlar ölkə tarixində ilk dəfə olaraq seçkidə iştirak edə biləcəklərinə ümid edirlər. Kral Abdullah iqtisadiyyatda da bəzi liberal islahatlar aparmışdı. Korrupsiyaya qarşı mübarizə idarəsi yaratmış, kasıblığın aradan qaldırılması üçün dövlət proqramı elan etmişdi. İllər uzunu ölkəsində "sabitliyin qarantı" adlandırılan kral "Ərəb baharı"nın gətirdiyi dəyişikliklər küləyindən ehtiyatlanmağa başlamış və insan haqları sahəsində daha sərt mövqedən çıxış etməyə başlamışdı. Misirdə diktator Hüsnü Mübarəkin devrilməsinə görə Qərbi ittiham edən kral ölkəsində şiə azlığının qiyam qaldırmaması üçün də önləyici tədbirlər görmüşdü. Ölkədə isə sərt mətbuat senzurası, qapalı siyasi sistem, işgəncə halları qalmaqdadır. Kral Abdulla dünyanın ən zəngin adamlarından idi. 20 milyard dollarlıq sərvətə malikdi. Mərhumun 10 arvaddan 30-dan çox övladı var.



# Şəhidlərin xatirəsi unudulmazdır

## Azərbaycanlıların Mədəniyyət Mərkəzində 20 Yanvar şəhidlərinin xatirəsi anıldı

*(Əvvəli səh. 1-də)*

Əvvəlcə Mərkəzin dəhlizində 20 yanvar qurbanlarına həsr olunmuş foto-stendi həm ürək ağrısı ilə, həm də qurur hissi ilə nəzərdən keçirən tədbir iştirakçıları sonra AMM-nin idarə heyətinin sədri Fazil Həsənovun təklifi ilə şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad etdilər. Daha sonra Azərbaycan Respublikasının Gürcüstandakı Səfirliyinin mədəniyyət və təhsil üzrə attaşesi Samirə Ağayeva, Gürcüstan Parlamentinin deputatı Mahir Dərziyev, Marneuli rayon Sakrebulosunun sədri Nəbi Abdullayev, şəhid Vəfadar Eminovun dayısı oğlu Arif Məmmədov,Tbilisi Texniki Universitetinin professoru Emilya Allahverdiyeva, ziyalı Vidadi Məmmədrzayev, Ukrayna-Gürcüstan Beynəlxalq Elmi-Tədris İnstitutunun prorektoru, professor Mahmud Hacıxəlilov, şəhid Fariz Babanlının anası Gülhəvva Babanlı,"Borçalı İş Adamları" İB-nin sədri İsrafil Bayramov, şəhid İlqar Əhmədovun əmisi oğlu Allahverdi Əhmədov,Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu,gənc istedad Almaz Nadiroğlu çıxış edərək 20 Yanvar tarixini Azərbaycanın müstəqilliyinin qan bahasına qazanılmasında, 9 aprel hadisələri ilə birlikdə hər iki xalqın xoşbəxt gələcəyinin təmin olunmasında müstəsna əhəmiyyətə malik hadisə kimi dəyərləndirdilər.





Tədbirdə Füzuli Sabiroğlunun 20 Yanvar hadisələrininin xronoloqiyasına dair sənədli filmi nümayiş olundu.

20 Yanvar faciəsinin 25 illiyi ilə əlaqədar keçirilən tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin birinci katibi İlyas Məmmədov iştirak etdi.

**RegionPress**

## Tbilisidə 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib

Gürcüstan paytaxtında fəaliyyət göstərən Tbilisi Beynəlxalq Akademiyasında "Borçalı İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr olunmuş "Unutsaq, unudularıq!" adlı anım mərasimi keçirilib.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları, akademiyanın professor və müəllim heyəti, azərbaycanlı və gürcü ziyalılar, Gürcüstanın ali məktəblərinin tələbələri və jurnalistlər iştirak edib.



Tədbiri açan "Borçalı İrəli" İctimai Birliyinin sədri Məhəbbət İmanov 20 Yanvar faciəsindən 25 il ötməsinə baxmayaraq, hələ də bu faciənin ağrı və dəhşətlərinin Azərbaycan xalqının qəlbindən silinməyini bildirib. Anım mərasimində Gürcüstan Texniki Universitetinin professoru, filologiya elmləri doktoru Quram Quvanitadze, Qafqazın Geotarixi və Geosiyasi Araşdırmaları Beynəlxalq Mərkəzinin prezidenti, tarixçi-professor Quram Marxulia və başqaları çıxış ediblər. Tədbirdə 20 Yanvar faciəsindən bəhs edən film nümayiş olunub.

## Bolnisidə 20 Yanvar faciəsinə həsr olunmuş foto-sərgi açılıb

20 Yanvar faciəsi şəhidlərinin xatirəsi Bolnisi rayonunda da yad edilib.

"Bolnisi Mədəniyyət Mərkəzi"nin təşkilatçılığı ilə Bolnisi Rayon İcra Hakimiyyətinin iclas salonunda 20 Yanvar faciəsinə həsr olunmuş foto-sərgi açılıb.

Azərbaycan və Gürcüstan ictimaiyyətinin nümayəndələri faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.



Mərkəzin sədri Fikrət Məmmədov, "Ümid" qəzetinin redaktoru Əlixan Yəhyaoğlu, icra hakimiyyəti başçısının müavini Longinoz Həsənov, deputat Leyla Əliyeva və başqaları çıxış edərək 25 il ərzində ilk dəfə keçirilən tədbirin əhəmiyyətindən danışıb, 20 Yanvar faciəsinin Azərbaycanın müstəqillik tarixindəki rolundan bəhs ediblər. Bu cür tədbirlərin məktəblərdə də keçirilməsinin vacibliyi vurğulanıb.

## "Xalqların milli azadlıq hərəkatını qan içində boğmaq istəyənlər layiqli cəza almalıdırlar"

***Yanvarın 20-də Tbilisidə Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin və M.F.Axundzadə adına Azərbaycan Mədəniyyət Muzeyinin birgə təşkilatçılığı ilə Qanlı Yanvar faciəsinə həsr olunmuş anım mərasimi keçirilib.***



Tədbir iştirakçıları Muzeydə 20 Yanvar faciəsinə həsr olunmuş sərgiyə baxıblar. Muzeyin direktoru Leyla Əliyeva tədbiri açdıqdan sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra səfir Azər Hüseyn çıxış edərək 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik tarixindəki mühüm rolundan söz açıb, bu qanlı terror aktına hüquqi-siyasi qiymətin verilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini xatırladıb.

Tədbirdə Gürcüstan parlamentinin deputatları, akademik Temuri Başeleişvili, kənd təsərrüfatı komitəsinin sədri Qiqla Aqolaşvili, deputat Mahir Dərziyev, qanlı yanvar faciəsinin canlı şahidlərindən olan Zurab Kukatiladze, tarixçi-alim Quram Marxulia, Gürcüstan mədəniyyət nazirinin müşaviri Georgi Gegeçkori, Gürcüstanın xalq artisti Xanzar Şomaxiya və başqaları çıxış edərək 1989-cu il aprelin 9-da Tbilisidə, 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş qırğınlar arasında paralellər aparıb, xalqlarımızın müstəqillik uğrundakı mübarizəsindən danışıblar.

Sonda "Qanlı yanvara aparan yol" adlı sənədli film nümayiş olunub.

## 9 Aprel və 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış abidənin bərpadan sonra açılışı olub

Yanvarın 19-da Saqareco rayonunun (Qaraçöp bölgəsi) Yor-Muğanlı kəndində 9 Aprel və 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış abidənin bərpadan sonra açılışı olub.

Abidənin açılışında Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn, Gürcüstanın hökumət üzvləri, Saqareco rayon icra hakimiyyətinin rəhbərliyi, ARDNŞ-ın nümayəndələri, gürcü və azərbaycanlı ziyalılar, tələbələr və kənd sakinləri iştirak ediblər.

Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü və ARDNŞ-in Gürcüstan nümayəndəliyinin maliyyə dəstəyi ilə inşa edilən abidənin açılışında çıxış edən səfir Azər Hüseyn 20 Yanvar faciəsinin 25-ci ildönümü ilə bağlı ucaldılmış abidənin açılışını əlamətdar hadisə adlandırıb.

Saqareco rayon icra hakimiyyətinin rəhbəri Georgi Kvirişvili çıxışında Gürcüstan-Azərbaycan dostluğunun sarsılmaz olduğunu bildirib: "1989-cu ildə baş verən 9 Aprel və 1990-cı ildə baş verən 20 Yanvar faciələri dövlətlərimizin tarixinə yazılan şanlı səhifələrdir. Biz şəhidlərimizi həmişə xatırlayacağıq!" – deyə icra başçısı vurğulayıb.



Qeyd edək ki, 20 Yanvar faciəsində 5 nəfər Gürcüstan vətəndaşı olan azərbaycanlı həlak olub, onlardan biri isə Qaraçöp kənd sakini Ələsgər Qayıbovdur.

**N. Məmmədzadə**

## Qardabanidə "20 Yanvar"a həsr olunmuş tədbir keçirlib



Rayonun Dostluq Evində keçirilən tədbiri giriş sözü ilə Dostluq Evinin müdiri Şəmistan Vəliyev açıb. Sonra Azərbaycan və Gürcüstan dövlətlərinin himni səsləndirilib. Tədbirdə Qardabani rayonunun İcra başçısı Qela Nioradze, Bələdiyyənin sədri Vaja Qenqəsvili rayon icra başçısının müavini Tenqiz Mirotadze, Bələdiyyə sədrinin müavini Rəfi Orucov, rayon deputatları, ağsaqqallar və gənclər iştirak ediblər. Çıxış edərək 1989-cu ilin 9 aprelində Tiflisdə, eləcə də 1990-cı ilin 20 yanvarında Bakıda vandalizmi, qətliamı törədənlərin beynəlxalq hüquq çərçivəsində cəzalandırılmalarını bildirdilər. Sonda tədbir iştirakçıları qanlı 20 yanvar faicəsinə həsr olunmuş "Unutsaq unudularıq" adlı sənədli filmə baxdılar.

**Nadir Almazoğlu**

## Məktəblilər 20 Yanvar şəhidlərinin xatirəsini andılar

1990-cı ilin 20 yanvar faciəsindən artıq 25 il keçir. Tbilisidə M. F. Axundov adına 73 saylı Azərbaycan ümumi məktəbdə müasir Azərbaycan tarixində mühüm yer tutan bu qanlı tarixi hadisəyə həsr edilmiş tədbir, keçirilmişdir. Tədbiri məktəbin direktoru Salman Pirməmmədov açmış və 1990-cı il yanvar qətliamının qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir, sonra Gürcüstanın ərazi bütövlüyü uğrunda döyüşlərin iştirakçısı, Gürcüstan müharibə və DİN veteranı Qəhrəman Musayev tədbir iştirakçılarına 1990-cı ilin yanvar ayında Bakıda keçmiş Sovet qoşunlarının törətdiyi faciə və onun siyasi-tarixi nəticələri haqqında ətraflı məlumat verdi. Məktəbin dram dərnəyinin rəhbəri və ədəbiyyat müəllimi Tamam Əliyevanın dəstəyi ilə bu tarixi hadisəyə həsr olunmuş səhnələr hazırlanmış və toplaşanlara şagirdlər tərəfindən təqdim olunmuşdur.



**Qəhrəmanlar**



# Z ə l i m x a n

## "SÖZDÜ BU DÜNYADA HƏR ŞEYDƏN ŞİRİN"

*Uca söz Peyğəmbər dərgahındadı,*
*Bu gün Zəlimxana bu qismət olub.*
**Z.Yaqub**

"Şairsiz ölkədə, şeirsiz eldə, nə söz gözəlləşib, nə hikmət olub", – deyən Xalq şairi Zəlimxan Yaqub yaradıcılığa başladığı ilk gündən sözün gücünə, qüdrətinə söykənib, onun qədir-qiymətini, məsuliyyətini bilib, sözü urvatdan salmayıb. O, 13 cildlik əsərləri külliyyatının birinci cildində yazır: "Görəsən dünyanın ilk insanı Adəmin dilindən çıxan hansı söz olub, o sözün adı nə olub, hansı mənanı daşıyıb, nə haqda deyilib, hansı mənəvi ehtiyacdan doğulub? Söz necə səsə, nəğməyə, şeirə dönüb, sözə ilk nizamı, ahəngi, ilk ölçünü-biçini kim verib? Dünyanın ilk şairi kim olub, ilk şeir nə haqda yazılıb? Bilmirəm. Bildiyim bircə odur ki, Adəmi, Nuhu, İbrahimi, Yusifi, İsmayılı, Məhəmmədi peyğəmbərlik dərəcəsinə söz qaldırıb. Bildiyim bircə odur ki, Homeri, Firdovsini, Nizamini, Danteni, Şekspiri, Mövlananı, Höteni, Hüqonu, Hafizi, Taqoru, Dostoyevskini, Tolstoyu zamanın özü qədər əbədiləşdirən, göylərin özü qədər ucaldan söz olub, söz! Gözə görünməyən, ancaq bütün gözə görünənləri idarə edən söz!"

Özünün dediyi kimi, nə yazıb-yaradıbsa, həmişə içini yazıb, içdən gələni yazıb. "Mənim silahım da sözdür" deyən şairi yazdıqlarının çap olunmasından çox, oxucunun qəlbinə yol tapması düşündürüb. "Qalın kitablar" yox, "qalan kitablar" yazıb:

*Mənim də silahım sözdü, şeirdi,*
*Gərək söz daşıyam, silah daşıyam.*
*Neçə sənətkarın, neçə ustadın,*
*Neçə sərkərdənin silahdaşıyam.*

"Allahım! Nə yaxşı sözü mənə etibar elədin. Nə yaxşı yazmaq istedadı, sözə yeni naxışlar vurmaq imkanı verdin. Sənə şükürlər olsun, Allahım!" – deyən şair hələ 1968-ci ildə özü-özünə sual edir ki, görəsən yazdıqlarım ürəkləri ala bilirmi, mənası varmı, sənət yollarında addım atdımı, ruha yatdımı, özünə yuva saldımı, oxucu qəlbində qaldımı:

*Dillərdə gəzdimi, xalqa çatdımı,*
*Yoxsa, öz yanımda qaldımı şeirim?*
**("Şeirim")**

Zəlimxan Yaquba görə, şair bir el məclisinə gələndə gözündə Günəşi, bir kəlmə sözündə bir dünya mənanı, bir dərya eşqi gətirməlidir. Xalqının şərəfi, adı dilində, Vətən torpağının odu, közü sinəsində olmalıdır:

*İlhamı dağ seli, gözü-könlü tox,*
*Hər sətri namərdə ox olmalı, ox.*
*Şeirini qoynunda, qoltuğunda yox,*
*Özündə, özündə gətirməlidir.*
**("Gətirməlidir")**

Dünyada gur bulaqlar çox olsa da, körpəlikdən meylini öz bulağına – ilham bulağına, söz bulağına salan şair üçün ilham bir ağacdı, halal mayalı bir bulaqdı, haram əl toxunarsa bu bulağın gözü tutula bilər. İlham – təmiz, saf, riyadan, yalandan uzaq bir uşaqdır ki, "nə versən ağlını kəs-dirmək, soyuq bir baxışla küsdürmək" olar. Görkəmli alim Xudu Məmmədov yazır: "İlham aləmi, gerçək şair olanların həmişə, şair təbiətli adamların arabir, qalanlarının isə bu haqda elə-belə təsəvvürü olan yerdir. Zəlimxan həmişə bu aləmdədir: hər yerdə, bütün vəziyyətlərdə. Onun elə bir sözü yoxdur ki, özü demiş "mayalı, özüllü" ilhamdan gəlməsin".

İlham barlı-bəhrəli, qızılı, zərli yarpaqlı bir budaqdır ki, çox əymək istəsən sınar:

*İlham bir torpaqdı, öz ətri, iyi,*
*Dediyin neməti yetirə bilər.*
*Min ildə zamanın bitirmədiyi*
*Min illik bir şöhrət bitirə bilər.*
**("İlham")**

Və deyir ki, şair ilhamı elə arxalanarsa, eldən güc alarsa, işığı azalmaz, şamı qaralmaz, onu şimşəklər də yenə bilməz ("Deyil").

Zəlimxan Yaqub üçün qələm silahdır, masa səngər, özü isə əsgər, əsgər isə məsləkinə and içər. O, qələminə inanır, "ömrüm boyu o mənimdir, mən onun", – deyir. Onun üçün qələm ağ kağızda qara yazı yazan taleyidir, güvəndiyi qüvvətdir, aqilindən, pirindən xəbər verəndir. Bu qələm "Xətaini qaldıracaq yerindən", xalqın taleyini yazacaq dərindən:

*O, halaldı, haramlığı götürməz,*
*Şah budaqdı, cır meyvələr gətirməz.*
*Ölənədək zəhmətimi itirməz,*
*İnanmışam, inanıram qələmə.*
**("İnanıram qələmə")**

Bəs Zəlimxan Yaqubun şeirlərinin bunca çox sevilməsinin, oxucu rəğbəti qazanmasının səbəbi nədir? Nədən onun şeirlərini, özünün də dediyi kimi, çiçəklər, arılar, böcəklər də oxuyur, qarışqalar, xallı kəpənəklər də, mələklər, tanrılar, fələklər də, keçmişlər də, gələcəklər də?! Kəklik də oxuyur, qartal da, sıldırım qayalar, geniş düzlər, sünbüllü zəmilər də oxuyur, "yaşıl ağac"dan söz açan oğlanlar, qızlar da... Şairi dünyanın ən xoşbəxt söz adamı edən nədir? "Gəzirdim çölləri bir yaz axşamı" şeirində bu suallara cavab verən şair deyir ki, "şair Allah dilində danışanda" onu "dağ da başa düşür, daş da" anlayır. Mənim şeirlərim də heç zaman boş dayanmayıb, dərdli ürəklərdən dərdi çəkib çıxarıb, dar komasında yoxsula həmdərd olub, çöllərə səyyah, xəstəylə cərrah, yoxsulla həmdərd, sarayla padşah dilində danışıb.

Görkəmli alim Xudu Məmmədov yazır: "Yad tikinti materialları çox asanlıqla yad memarlıq forması gətirdiyi kimi, yad sözlər də yad şeir forması gətirir. Bu mənada bir şair olaraq "yad tikinti materiallarına" – yad sözlərə və özgə düşüncələrə yönəlməməsi, sazın və klassik irfanın bəxş elədiyi doğma obrazlarla baş-başa qalması, məhrəm keçmişlərə ehya verməsi Zəlimxan Yaquba çağdaş Azərbaycan şeirində ayrıca bir mövqe qazandırdı".

XX əsrin sonlarından başlayaraq dilimizə bir çox yabancı sözlərin daxil olduğu bir vaxtda Zəlimxan Yaqub poeziyamızın dilinin saflığını, təmizliyini qoruya bildi. Tam məsuliyyətlə demək olar ki, çağdaş dövrümüzdə poeziyada klassik ənənənin, poetik dilin şirinliyinin və özünəməxsus-luğunun qorunub saxlanılmasında Zəlimxan Yaqubun müstəsna xidmətləri var. Onun şeirlərinin dili həmişə saf olub, təmiz olub. Çünki doğmaca anasının dilində yazıb-yaradıb:

*Anam necə dinir, necə danışır,*
*Şeirimi anamın dilində yazdım.*
*Məni dilləndirən, məni dindirən,*
*Sevgimin, sonamın dilində yazdım.*

*Sağlam əqidənin, saf təbiətin,*
*Allaha inamın dilində yazdım.*
*Halal kişilərdən halal söz aldım,*
*Halal bir ilhamın dilində yazdım.*

Sinəmin sipəri, ruhumun, canımın təpəri sözdü, söz mənim ruhumdu, canımdı, – deyən, özünü söz səngərində döyüşən əsgər sayan şair üçün bu dünyada sözdən yuxarıda heç nə yoxdur, bəzən şairi nə qədər endirsələr də, söz yenə öz ucalığında qalır. Ona görə, bütün zamanlarda şairin sözü şaha özünün fərmanından ağır gələcək. Çünki:

*Min şah bir ölkədə şahlıq elədi,*
*Bir şair şöhrəti qazanammadı.*
**("Şairin sözü")**

Ömrü "yağ-böyrək içində" tutmayan, içində od vurub yağ əridən, "ağa baxa-baxa ağ əritməkdən" gözünün ağı gedib, qarası qalan Zəlimxan Yaqub deyir ki, Haqqın eşqi, əsəri, sözün hökmü, kəsəri, müqəddəslərin Haqdan gələn xəbəri, elin dərdi, kədəri, könüllərin qəhəri, Tanrının xoş nəzəri məni şair elədi. Və bir də deyir ki:

*Üzü qaralmasa ağ varaqların,*
*Şairin həyatda üzü ağ olmaz.*
*Dayanma, ey qələm, susma, ey ilham,*
*Nəğməsiz, şeirsiz yaşamaq olmaz.*
**("Olmaz")**

Bütün zamanlarda hökmdarlar şairin sözündən qorxub, çəkinib, bu sözün qüdrəti, gücü qarşısında aciz olublar, ehtiyat ediblər. Şair sözünün qüdrətindən qorxanlar şairə müxtəlif yollarla maneələr törətməyə çalışıblar. Bu, öz müstəqilliyinə qovuşanadək Azərbaycanda da belə olub. Şairlər şərin-böhtanın qurbanı olub, sürgün həyatı yaşayıb, günahsız güllələniblər. "Şairi qoysalar şair olmağa" şeirində Z.Yaqub yazır ki, vüqarını sındırmasalar, "paxıllıq buzunda dondurmasalar", ögeylik odunda yandırmasalar, ara qarışdırıb "yaxşını yaman tək qandırmasalar", sürgünə göndərib, gülləyə verməsələr, şair Allahın eşqindən güc alıb arzularını toxum kimi səpərək "Tanrı qüdrətindən əsər yaradar". Əgər şair hər gün içəridən yeyilməsə, "köntöy baxışlarla döyülməsə", qeyrətiylə Araza körpülər salar, ilhamıyla təzə bir Kür yaradar.

İnadıyla "daşları yumşaldıb mum" eyləyən Zəlimxan Yaqub fikrini, düşüncəsini sağlam toxum eyləyib, "ağappaq varaqları qapqara şuma" döndərib, nə əqidəsi sarsılıb, nə də inamı laxlayıb. Heç zaman ayaqlarda sürünməyib, həmişə baş ömrü yaşayıb. Bu həyatda qismətinə dəftərlə qələm düşdüyünə görə, Tanrıya şükür edir. Şair olmağın məsuliyyətini bilir:

*Havalanıb nə həvəsə düşmüsən,*
*Şair olmaq deyil asan, ürəyim.*
*Ərimənsən, əritmənsən ömrünü,*
*Kimdi sənə qulaq asan, ürəyim.*
**("Ürəyim")**

"Dön millət yolunda çırağa, şeirim!" – deyir, şeirinin güclüdən güclü, mətindən mətin olmasını, döyüşçü qəlbində əqidəyə dönməsini istəyir. İstəyir ki, onun şeiri dəftərə, varağa sığışmasın, torpağı silkələyib, göyləri oyatsın, müqəddəs Vətən torpağına baş əysin:

*Durma ortalıqda, ya ucal, ya en,*
*Boş-boş tüstülənmə, ya alış, ya sön.*
*Döyüşçü qəlbində əqidəyə dön,*
*Sınmasın, düşəndə sınağa, şeirim!*
**("Şeirim")**

Söz üçün ən ulu dərgaha varan, sözün eşqinə sinəsini yaran, söz dünyanın harasında olsaydı axtara-axtara gedib tapardım ("Söz") deyən xalq şairi deyir ki, mənim şeirim təmkində, dözümdə, səbirdə alınmaz qaladı, yıxılmaz dağdı, yerdə də, göydə də qol-qanadı var, ətri var, rəngi var, sehri, dadı var.

Zəlimxan Yaqub üçün şeir haqqın duasıdır, için aynasıdır, qəlbin ziyasıdır – şeir ziyadan doğulur, daşdan, qayadan, kökdən, mayadan doğulur. Şeir ürəklərin ahıdır, könüllərin şahıdır, şairin Allahıdır.

*Mənası ölümsüz, mətləbi dərin,*
*Sözdü bu dünyada hər şeydən şirin.*
*Yaxşı bir əsəri varsa şairin,*
*Onu şair yazmır, Allah yazdırır.*
**("Şeir")**

Z.Yaqub deyir ki, şair öz ömrünü yaşamır, "dərdin, qəmin bol ömrünü yaşayır", yolçuların yoldaşına çevrilib cığır açır, yol ömrünü yaşayır. Şairlər bağçalarda gül ömrü, pətəklərdə bal ömrü, sazda zil ömrü yaşayır. Şairlər "mərd doğulur, mərd böyüyür, mərd ölür", igid olub millətinə şan da verir, şəhid kimi yarasından qan da. Qeyzə gələndə Koroğluya dönür, sınaqlarda polad kimi sərt olur:



**Şəkildə:** *(soldan)* - Azərbaycan Aşıqlar Birliyinin katibi Musa Nəbioğlu, Gürcüstan Parlamentinin deputatı Azər Süleymanov, Xalq şairi Zəlimxan Yaqub, AMM-in idarə heyətinin sədri Fazil Həsənov və Gürcüstan Parlamentinin deputatı Mahir Dərziyev.

*Bir dünyadı, min dünyaya bağlanır,*
*Xalq ömrünü, el ömrünü yaşayır.*
**("Şair ömrü")**

Könüllərə yol tapan, yaddaşlara hopan şeir hər vaxt yazılmır, o, şimşək kimi çaxıb bircə anda yaranır. Yaxşı şeir nurlu gözdə, odlu-alovlu canda, bəzən qanlı davalarda, zindanlarda yazılır. Z.Yaqub da yazır ki, "dünyanın yaxşı şeiri hər gün yazılan deyil", – çünki "dünən dərin bildiyin, bu gün dayaz görünür", zəiflərin bolluğunda yaxşılar da az görünür:

*Kökü qədimdən qədim, Adəmdən, Nuhdan gəlir,*
*Qarışıb qandan keçir, süzülüb ruhdan gəlir.*
*Ruh da, qan da, nəfəs də qadir Allahdan gəlir,*
*Dünyanın yaxşı şeiri hər gün yazılan deyil!*
**("Dünyanın yaxşı şeiri")**

"Ölüm" ifadəsinin, "Allah" kəlməsinin "söz bazarında" şordan ucuz olduğu vaxtda həyatın sərt sınağını, çətinliklərini görməyənlərin, zü-

# Yaqub – 65

lüm nədi, ölüm nədi bilməyənlərin zülümdən, ölümdən, "bir dəfə əlini köz yandırmayan"ların Əslinin, Kərəmin külündən yazmasıyla barışmayan şair, "hamıya zülmətdi dünya" deyənlərlə də razılaşmır:

*Ölüm şeirləri baş alıb gedir,*
*Ölümü əkirlər, səpirlər indi.*
*Tüpürüb üzünə nurun, həyatın,*
*Ölümün üzündən öpürlər indi.*
**("Həyatdan yazanlar geri qalıbdır")**

Sözün gücü, qüdrəti böyükdür. Söz İlahidən gələn nurdu, Tanrının dilindəki duadı. Sözdə el gücü var, hökmüylə çaylar dayanar. Sözün elə gücü var ki, könülləri ovsunlayar, "gülləkeçməz qayalara" yol açar. Tanrının sözünə "dirsəklənən", sözü ömrünün sərvəti, zəri hesab edən Zəlimxan Yaqub deyir ki, "söz yıxanı Tanrı çətin qaldırar". Çünki "Allah qüdrəti var sözün ca-nında".

*Onsuz ömrün nə balı var, nə şanı,*
*O qaynadır qaynayanı, daşanı.*
*Söz Allahın yer üzündə nişanı,*
*Allah özü məncə sözdü, məncə söz.*
**("Söz")**

"Qələm Allahın danışan dilidir", "Şairsən, Allahın dilində danış", – deyən Zəlimxan Yaquba görə sözün də öz Tanrısı, öz Allahı var, yaxşı şeiri yazdıran Allahdır:

*Şeiri mən yazmıram ki, eşqin şahı yazdırır,*
*Sözün öz tanrısı var, öz Allahı yazdırır.*
*Yazılan hər kitabı eşqin ahı yazdırır,*
*Hər günümü bir varaq, hər ilimi kitab say.*

Şairin "qibləsi fikir, Tanrısı söz", yönü Allaha doğru olmasa, kövrək arzuları ürəkdən su içməsə, sünbülü dənə çevrilə bilməz. Yalan qənimidi, dini həqiqətdi şairin. Şairin həyatı budur, Günəşi ilhamdan doğarsa, göydəki Günəşə ehtiyacı yoxdur:

*Sevgisiz, ilhamsız, sözsüz, nəğməsiz,*
*Şairin bircə gün həyatı yoxdu.*
**("Şairin")**

Yaradıcılıq ilhama bağlıdır. Şairlik digər peşə sahələri kimi deyil ki, səhərdən-axşamadək oturb şeir yazasan. Burada Polşa şairi V.Borskanın fikirlərini xatırlatmaq yerinə düşər: "Fəlsəfə elmləri doktoru – çox təmtəraqlı səslənir. Amma poeziya elmləri doktoru yoxdur axı. Əgər belə olsaydı şairlik peşəsi xüsusi təhsil tələb edərdi". Zəlimxan Yaqub da deyir ki, şair hər gün şair olmur, gündə bir kitab yarada. Şairin ilhama, Tanrıya bağlı anları, saatları var. "Allah! Allah" deyib yazmağa başlayan şairin əsərin son nöqtəsini qoyanda Haqqa hesabat verməyi də var. Hər yazdığından sonra Haqqa hesabat verənlər isə Yaradana yaxın olur:

*Uca şeiri yaradanlar*
*yeri göyə bağladılar.*
*Yaradana yaxın olan*
*imzaları, adları var.*
**("Haqqa hesabat")**

Və:
*Bəxtəvərdi ömrü boyu haqq deyib,*
*Haqq çağırıb, haqq eşqinə yazanlar.*

Şeiri varaqdan oxuyanlara deyir ki, o sözlər Tanrının dilindən, Allahın əlindən, Kərbəla çölündən keçib, onu varaqdan oxuma, "ürəyinə köçür, yaddaşına yaz". Özünün şeir deməsi isə ayrıca bir söhbətin mövzusudur. Ona saatlarla qulaq assan da, doymaq bilmirsən. Çünki onun "yaşıl misralardan yaşıl don biçən" şeirləri insanın ruhuna qida verir, insanı gözəlləşdirir. Şairin özü də "mənim gözəlliyim şeirimə bağlı", – deyir: İlham məni yar kimi danışdırır və mən ən şirin havalar kimi dinirəm:

*Bürünür ipəyə, zərə bir cürə,*
*Dağ bir cür gözəldi, dərə bir cürə.*
*Bir cür gözəlləşir, hərə bir cürə,*
*Mən şeir deyəndə gözəlləşirəm.*
**("Gözəlləşirəm")**

Z.Yaqub deyir ki, şairin özü böyüməsə, sözü böyüməz. Şair gərək əvvəlcə izini böyüdüb dar cığırları yollara döndərsin, dağını, düzünü böyütsün, genişliyə çıxıb zirvəyə qalxmağı bacarsın. O, ürəyini tarlaya, düşüncəsini zəmiyə çevirib, sözdən bu dünyaya boylanan baxışı böyüdüb, ağrı-sına, əziyyətinə dözüb ayazdan-şaxtadan, qurddan-quşdan, "arxadan atılan daşdan" qoruyaraq yazdıqlarını içində böyüdüb:

*Bir qələm, bir dəftər, bir şam, bir də mən,*
*Bir ümid, bir sevgi, ilham, bir də mən,*
*Nə səpdim, nə əkdim, bir Allah bilir,*
*Gündüzlər qovruldum axşama qədər,*
*Gecələr nə çəkdim bir Allah bilir.*
*Səpdim duyğuları sətirlərimə,*
*Böyütdüm içimdə misralarımı.*
**("Böyütdüm içimdə misralarımı")**

"Duyğuların zirvəsinə baş vurub, uca sözün ucasından gəlirəm", – deyən Zəlimxan Yaqub hesab edir ki, şairə hardan gəlirsən deyə sual vermək ("Şairə demə ki, hardan gəlirsən") düzgün deyil. Çünki ilhamı halal mayadan güc alan şairlər hardan gəlib hara getdiklərini yaxşı bilirlər:

*Hara getdiyini çox gözəl bilir,*
*Hardan gəldiyini bilən şairlər.*

O, deyir ki, əsl şair elin ürəyindən, canından, çiçəkdən, çəməndən, zəmidən, bulağın saflığından gələr, ilhamı tarixin mükafatı olar, hünəri torpağın təkindən gələr, elin alqışı qoluna qüvvət verərsə, dünyanın yükünü çəkər, yorulmaz:

*Əbədi dirilər cərgəsindədi,*
*Söz üstə şəhidtək ölən şairlər.*

Oxucu nə zaman şairdən narazı qalar, gileylənər? Zəlimxan Yaqub deyir ki, ("Haqlısan şairdən gileylənməyə") şair cəsarəti, şair qeyrəti xalqın namusuna göz dikənlərin boğazına qurğuşun olmursa, anaların fəryadı, gözyaşı qəlbinin sızlayan neyinə dönmürsə, sözün qılıncı kəsərdən düşürsə, oxucunun haqqı var şairdən gileylənməyə:

*Söz gərək düşmənin qəddini əyə,*
*Əyə bilmədisə namərd qəddini,*
*Haqlısan şairdən gileylənməyə.*



**Musa NƏBİOĞLU**
***Azərbaycan Aşıqlar Birliyinin katibi***

## "... Qiblənin yerini düz tapmışıq."



Kərəmət Böyükçöl

Bu gün Zəlimxan Yaqubun doğum günüdür, əziz qağamızın 65 yaşı tamam olur. Nədənsə, heç vaxt hiss eləməmişəm ki, Zəlimxan müəllim bu boyda ömür yaşayıb. O demək deyil ki, həmişə bizimlə tay-tuş kimi davranıb deyə, bu cür düşünürəm. Bu, çox xırda həqiqət olardı.

Müstəqil Azərbaycanda heç bir şair Zəlimxan Yaqub qədər şöhrətin zirvəsinə ucalmayıb və heç bir şair şöhrətə bu qədər layiq olmayıb. Mən bunun dəfələrlə canlı şahidi olmuşam; yadıma düşmüşkən, birini deyim: tədbirlərin birində iki qadın camaatın arasında Zəlimxan Yaqubun qarşısında diz çöküb onun əllərindən öpdü.

İndicə Zəlimxan Yaquba zəng elədim, telefonda danışdıq. Səsi elə bil, əsrlərin dibindən gəlirdi, güclə eşidilirdi. Mən nə qədər insanın Zəlimxan Yaqubu ürəkdən sevdiyini və bu sevginin nə qədər səmimi olduğunu əminliklə deyə bilərəm.

Zəlimxan Yaqubla bağlı yaddaşımda o qədər yazmalı şeylər var ki... Amma bir xatirəni danışmaq istəyirəm. Səhv eləmirəmsə, iki-üç il bundan qabaq şair dostum Anar Aminlə Zəlimxan Yaqubun doğum gününü qeyd edirdik öz aramızda. Anarın xasiyyətidi, həmişə mənə zəng eləyəndə salamsız-kəlamsız birbaşa yerimi soruşur:

– Hardasan?

Ya bərk qar yağırdı həmin gün, ya da təzə-təzə yağmağa başlayırdı, dəqiq yadımda deyil. Anar Amin dedi ki, görüşək. Darıxıram. Əsl vurmalı havadı. Dedim, evdəyəm, bizimkilər bir azdan rayona çıxacaqlar. İki araq al gəl, görüm nə var evdə. Elə mən də içmək istəyirəm.

Dostum balaca uşaq kimi elə sevindi ki... Belə sevincə adam kədərlənməyə bilmir. Darıxanda Anar həmişə mənə zəng eləyir. Allah haqqı, elə mənim kimi. Elə ki ürəyim sıxıldı, daş ürəyimin başına, o saat Anar Aminə zəng eləyirəm, görüşüb bir-birimizi tərifləyirik, bəzən bu təriflər səhərə qədər çəkir, bəzən də axırı davayla bitir.

Neçə illərin dostuyuq Anarla, təsəvvür eləyin, həmişə bir yerdə darıxmışıq. Nə qədər dalaşırıq, xeyri yoxdu, yenə darıxırıq. Tez-tez mənə deyir ki, sən istedadsızın yekəsisən. Hər dəfə belə deyəndə boynunu qucaqlayıram onun. Deyirəm, istedadıma inanmırsansa, gedək Zəlimxan Yaqubdan soruşaq.

Anar zəng eləyəndə, doğrudan da, atamla anam rayona hazırlaşırdılar. Fikrim varıydı ki, yoldaşlardan bir-ikisini çağırım, belə soyuq havada gözlərimiz dolana qədər vuraq, keçmişə baş çəkək, sevgilərimizi xatırlayaq, nə bilim, ağlayaq. Qapını çöldən bağlayaq, guya heç kim yoxdu içəridə. Lap evdə dombalaq aşaq, televizorun üstünə çıxaq, evdə velosiped sürək, yerində olmayan şair və yazıçıları ələ salaq, lağlağıya qoyub gülək.

Atam bilir xasiyyətimi, ona görə heç söz demir, bilir ki, sözünə baxmayacam. Amma anam qapıdan çıxhaçıxda dedi, işıqdan, qazdan ehtiyatlı ol, yerin içində siqaret çəkmə, yuxu tutar, siqaret əlindən yorğanın üstünə düşər, ev yanar. Onsuz da, yorğan deşik-deşikdi siqaret külündən.

Anamın: – "yenə uşaqları yığma evə" – xəbərdarlığı ilə Anar Aminin növbəti zəngi necə oldusa, üst-üstə düşdü. Telefonu açmadım ki, anam heç nə bilməsin. Amma anam: – "Allah ömrünü kəssin" – deyib evdən çıxanda hiss elədim ki, şübhələnib.

Aradan iki-üç il keçsə də, həmin məqamı olduğu kimi xatırlayıram, bizimkilərin evdən çıxmağıyla Anar Aminin qapıdan girməyi, təxminən, bir yumurta bişib qurtaran vaxt qədər çəkdi. Yəqin, çöldə dayanıb evdəkilərin çıxmağın gözləyirmiş. Anar ayaqqabılarını hələ çıxarmamış, qapının ağzındaca aldığı içkidən, təxminən, 100 qram, Musa Yaqub demişkən, ötürdü içəri.

Niyə bilmirəm, biz içəndə Allahı daha çox xatırlayırıq. Bəlkə də, səhv eləyirik, amma elə bil, içdikcə Allaha yaxınlaşırıq. Həmin vaxtlar Zəlimxan Yaqub müalicə üçün Almaniyaya getmişdi, səhv eləmirəmsə. Evdən olandan-olmazdan balaca bir süfrə düzəldib oturduq, teztez də Zəlimxan müəllimi yada salırdıq.

Anar Amin inandığı həqiqətlər haqqında o qədər ürəkdən danışır ki, məclisdə içki olmasa belə, istər-istəməz onun yaradıcı ruhu adamı sərxoş eləyir. Dediyi hər bir sözü, əlqol hərəkətləri ilə izah eləməsi, ümumiyyətlə, arağın üstündən pivə kimi bir şeydi. Hələ üstəlik, çöldə bərk soyuqdusa, deməli, növbəti badəni mütləq pəncərənin qabağında içməlisən. Təbiətə acıq veririk elə bil. O qədər belə günlərimiz olub ki...

Anarda bir xasiyyət var – düzü, bu hal mənə də keçib – bir damcı içən kimi Zəlimxan Yaqub yadına düşür, sonra Musa Yaqub, Məmməd Aslan...

Ürəyi də cibi kimi təmiz olan dostumun içib Almaniyaya, Zəlimxan Yaquba zəng eləməyi, dua eləməyi həmin günü yadımda saxlayan ən maraqlı hadisə oldu.

Anar Amin:

– Qağa, Allah sizə uzun ömür, can sağlığı versin.

Anar Amin həmişə bu zarafatı eləyir Zəlimxan Yaqubla. O da gülür. Bu da Anara ləzzət eləyir.

– Qağa, Allah mənim ömrümdən 5 il, Qılman İmanın ömründən 10 il, Elvin Bakiroğlunun ömründən 15 il, Kərəmət Böyükçölün ömründən də 30 il alıb sənə versin.

Hiss elədim ki, Anar kövrəlib, telefonu yerə qoyan kimi dedi:

– Zəlimxanın səsi zəif gəlir. Götür, vuraq.

– Vuraq!

– Kərəmət, sən Allah, gəl bunu Zəlimxan Yaqubun sağlığına içək, özü də üzü qibləyə dayanıb dua eləmək istəyirəm ona. Qoy Allah səsimizi eşitsin, Zəlimxan Yaqub tez sağalsın.

Məni gülmək tutmuşdu, Anar Amin nə qədər elədi qiblənin yerini tapa bilmədi, yerində fırlana-fırlana qaldı. Deyəsən, Zəlimxan Yaqubun güclə eşidilən səsi onu lap sərxoş eləmişdi.

Axırda üzünü təxmini bir tərəfə tutub arağı içdi, içən kimi rumkanı stolun üstünə qoyub, çox qəribə və izaholunmaz bir intonasiya ilə dedi:

– Zəlimxan Yaqub sağalsa, demək, qiblənin yerini düz tapmışıq.

Doğum gününüz mübarək olsun, qağa! Biz sizi çox sevirik! Lazım olsa, ömrümüzdən də verərik sizə. Təki siz var olun!

## Zəlimxan Yaqub haqqında kitab




Anadan olmasının 65 illik yubileyi ərəfəsində Xalq şairi Zəlimxan Yaqub haqqında yeni kitab işıq üzü görüb. "Vətən" nəşriyyatında nəfis tərtibatla çap olunan "Sözün Zəlimxan zirvəsi" adlı bu kitabın müəllifi Musa Nəbioğludur. Giriş və on üç bölmədən ibarət olan monoqrafiyada Xalq şairinin yaradıcılığı müxtəlif aspektlərdən təhlil olunur.

Kitabın redaktoru professor Qəzənfər Paşayev eyni zamanda geniş ön söz də yazıb. "Zəlimxan Yaqubun bağbanı olduğu şeir bağçasına daxil olmaq üçün gərəkdir ki, çağdaş poeziyamızla yanaşı, folklorumuzu, xüsusən də, aşıq yaradıcılığını, Zəlimxanı yetişdirən mühiti yaxşı biləsən", - deyən Q.Paşayev M.Nəbioğlunu "deyilənlərə cavab verə biləcək tədqiqatçı" kimi dəyərləndirir və kitabı son illərdə Zəlimxan Yaqubun yaradıcılığına həsr olunmuş ən sanballı tədqiqat işi hesab edir: ""Sözün Zəlimxan zirvəsi" əsəri şairin sahilsiz ümmana bənzər yaradıcılıq yoluna işıq tutan tədqiqat işi olmaqla bərabər, Zəlimxan Yaqubun poeziya aləminə uğurlu səyahətdir".

# Koroğlu və koroğluluq

Adı dillərdə dastan olan qoç Koroğlu bir hekayə, nağıl, əfsanə və dastan qəhrəmanı olmamışdan öncə bir tarixi şəxsiyyət kimi mövcud olmuş, şərəfli bir ömür sürmüşdür. O, bütün şəxsiyyəti və insani keyfiyyətləriylə də zamanında qeyrətin, hünərin və şücaətin bir simgəsi səviyyəsinə yüksəlmişdir. Koroğlu aşıqlıq gələnəyinin layiqli davamçısı kimi də yaddaşlarda heykəlləşmiş, bir ustad-ozan örnəyi olduğunu təsdiqləmişdir. O, eyni zamanda kamil bir şair kimi də tarixdə öz əbədi koroğluluq möhürünü vurmuşdur. Klassik aşıq şeirinin çox dəyərli və sanballı örnəklərini yaradan və onları sehirli sazının "zilini zil, bəmini bəm və sinəsi üstə müstəkəm" insanların qəlbinə möhürləməyə qadir və qabil olmaqla yüzillərin sınağından üzüağ çıxmağı bacarmışdır. Bütün Türk dünyası miqyasında Koroğlu adı çox geniş yayılaraq zaman-zaman dillərdə dastanlaşmış və əbədiyaşarlıq qazanmışdır. İstər Orta Asiyada, Doğu Türküstanda, Krımda, Kafkaslarda və ümumən Türk atının nallarının möhür vurduğu üç qitədə bir koroğluluq da at oynatmışdır. Koroğlu dastanlarından öyrəndiymiz və bütün zamanlarda öyrənəcəymiz və gələcək nəsillərə öyrədəcəymiz çox incə mətləblər var. Bələki zalımlara, el malını yeyənlərə, namərdlərə öz Misri qılıncıyla meydan oxuyan və heç aman verməyən Koroğlu məzlumlara, haqqı tapdananlara bir umut yeri, güman yeri, nicat yeri kimi görünür. Koroğlu şeirlərindən bir numunə:



*Mənəm deyən gəlsin, girsin meydana,*
*Dolansın meydanı mərdi-mərdana.*
*Utansın namərdi bəsləyən ana,*
*Daim onun işi ahu-zar olsun.*

Daim mərdin və mərdliyin dizinin taqəti, qolunun qüvvəti olan qoç Koroğlu "Utansın namərdi bəsləyən ana" kəlamıyla özünün kimliyini bir daha təsdiqləmiş olur. Dastan qəhrəmanı, çox ünlü ozan və dəyərli şair olan qoç Koroğlu bütün zamanlarda nə Qır atından, nə könüllərdən və nə də Koroğluluqdan ayrılmamış, elə orda –öz məqamında bərqərar olmuşdur. Deməli hər kəsə bəlli olan Koroğlu şəxsiyyətindən başqa bir koroğluluq məqamı da var və həmin məqamın özündə koroğluluğun özü bərqərardı. Və koroğluluq qatı bütün zamanlarda hallalıqla qorunaraq bu günümüzə qədər necə var, elədə gəlib çıxmağı bacarmışdır.

Koroğluluq - mərdlik, igidlik, qoçaqlıq, sözündən dönməmək, ləyaqət, mərifət, haqq-ədalət, doğruçuluq və sair bu kimi anlamlarda düşünülməlidi. Bəlkəsiz koroğluluq Koroğluya, onun əməl, amal və ideallarına xas düşüncələrdən doğulub , fəqət müstəqil bir kişilik simgəsi kimi mövcudluğunu və kamilliyini əsrlərdən-əsrlərə hünərlə daşımışdır. Tarix çox-çox qəhrəmanlar dünyaya gətirmiş və onların hər biri də öz imzasını tarixdə layiqincə yadigar qoyub getmişdir. Amma nə yazıq ki, onlardan çoxunun adı unudulmuş və zaman-zaman yaddaşlardan silinib getmişdir. Fəqət Koroğlu adı və koroğluluq bütün zamanlarda öz mövqeyində qayım-qədim olmuşdur. Koroğluluq bir anlayış kimi düşüncələrin təfəkkürün daha dərin qatlarında yerləşib. Məsələn: Koroğlu kimi adam, Koroğlu kimi el, Koroğlu kimi xalq. Çox əzəmətli bir qaya və ya uca dağ koroğluluq düşüncəsilə yozulub. Gürcüstan coğrafiyasında Koroğluya və koroğluluğa daha dərin rəğbət duyulmaqdadı. Bu bölgədə yaşayan və yüzdəyüzü Türksoylu olan Qarapapaq Türkləri daha çox Koroğlu nəslinin törəmələri kimi özlərini doğrulayır. Əlbəttə, bu kimi düşüncələrə sahib olduqlarına görə, onlar daha dözümlü, daha cəsarətli davranışlarıyla özlərini qoruya bilirlər. Koroğluluq bir anlayış olaraq mövcuddursa, ordan gələcək koroğluların boy göstərməsinə çox böyük umudlarla baxmağa dəyər.

Tarixdə gəlmiş-keçmiş bütün qəhrəmanlıqların insan düşüncəsində öz yeri, öz qatı var və o həmin qatdan boy göstərər. Koroğluluq qatı da onlardan biri. Bəlkə tarixdə Koroğlunun özü olmasaydı belə, koroğluluq qatı öz məqamında daim yaşamağı bacarardı. Koroğlu və koroğluluq anlayışında bütün sınaqlardan alnıaçıq və üzüağ çıxan bir məqam da var ki, buna da "Halallıq" deyilir. Bəzi yorumçuların yozmalarına baxsaq, bu kişinin bir yolkəsən, bir çapoulçu və ya hərami olduğuna inanmış olardıq. Bundansa Koroğlunun öz deyimlərindən bəzilərinə üz tutsaq, bunun tamamilə əksini görmüş olarıq: "Mən doğruluqdan yoğrulan bir xəmirdən yapılmışam". "Yüz Hərami haqladım, bir haram tikə yemədim". "Mən doğruluğu dost qapısı bilmişəm". Deməli, Koroğlu özü də koroğluluğa söykənəndə daha güclü olur.

**Osman Əhmədoğlu**

## Düzəliş

***Ötən sayımızın 11-ci səhifəsində "Professor Zahid Qaralov vəfat etdi" adlı yazının ikinci abzasının ilk cümləsi belə oxunmalıdır: "Qaralov Zahid İbrahim oğlu 10 iyul 1934-cü ildə Gürcüstanın Başkeçid (indiki Bolnisi) rayonunun Ormeşən kəndində anadan olub.***

# Van Qoq Qarayazıda

***(Azər Şahismayıloğluna məhi-taban məktub)***

**Canım-qardaşım Azər!..**

...Həddülfüqəra hədislərin birində bəsirət gözü ilə belə deyilir: "Allahın Peyğəmbəri (s) insan haqqında bunları söylədi: – Allah yanında heç nə və heç kim Adəm övladından üstün deyil. Soruşdular: – Ey Allahın Peyğəmbəri, hətta mələklərdəmi? Buyurdu: – Mələklər Günəş və Ay kimi məcburdurlar".

Dünyanın uqcar adamı olaraq, Əyriqar adlı ədəbi ərazimdə məni Məsələnin və Mənanın məhz bu arazbarı məğzi cəlb edir: Günəş və Ay kimi məcbur olmaq!

**Canım-qardaşım Azər!**

Sözümün toz-tozanaq təkrarına bir də qayıdıram. Sən necə bilirsən – Əyriqarın ətəklərinə yaxın, Sınıq körpüdən bu qədər həzin-füzun uzaqlarda arada-sırada uçqunlarda, uçurumlarda var olmaq, həmişə bir xilaskar, bir xilasetmə dəstəsi istəmirmi? Son yaralı yarpaq düşüb, xəzəllərə qarışıb, son oxucum da Gəncə tərəflərə çoxdan köçüb... bu qədər depressiya, bu qədər ümidsizlik, bu qədər sıxıntı... amma məcburam. Özü də elə-belə, moizə məcbur deyiləm; müsibət məcburam; yəni az qala "Günəş və Ay kmi" məcburam... yəni azından özümü buna inandırmışam.

Xətrimi xariqə istəyən atan da yaxşı bilir. Cəmi Gürcüstanda – günahlıya,



günahsıza, vəfalıya, vəfasıza, yetimə, atalıya, oğruya, doğruya, müxtəsəri, bütün xəlq olunanlara təbərrük təbəssüm göstərən, güləruz bəxş edən atan Şahismayıl müəllim. İndi şəstini şahanə sındırdığın, bənizinə qara buludlar gətirdiyin, zoddu-oddu yerişini yavaşıtdığın, sənin cənazə namazında canına ocaq qalanan, ruhunu qoymağa yer tapmayan, köç-külfəti Kərkük tərəflərdə bürəm-bürəm qara-borana düşən qürbətçi misallı atan Şahismayıl müəllim...

Bir də gülümsəyəcəkmi? Yalnız Allah bilir; "Axirətin darvazası" sayılan ölümlə hər kəsin qiyamətinin əslində necə ərməğan olduğunu yalnız və yalnız Özünə məlum eləyən, Vaqiflər Vaqifi Uca Allah!..

**Canım-qardaşım Azər!**

Hər vaqifanə Azərin bir bəsirət dolu Baycan tərəfi də var! Bu məcazlı mənada sənin istedadından, parlaq gələcəyindən, sənin timsalında bizim İstanbulda təhsil alan, özü də öz biliyi və fərasəti ilə təhsil alan ülviyyət dolu ünidimizdən danışıb, atan Şahismayıl müəllimə və anan Vətəngül xanıma bəxtəvər verənlər az idimi?..

Qar-qubar dolu mesajını aldım: Qarayazıdan qara yazın gəldi. Sən həm "Axirətin əkin sahəsi", həm də "ziyan bazarı" olan dünya ilə belə hesab-kitab çürütdün. Dünya mənfəətini istəyənin axirət qazancı olmadığını yəqin edən, keçici həyatdansa öz əbədi evini abadlaşdırmağa gedən canım-qardaşım Azər!

Sənin intihar xəbərini alanda mən Van Qoq haqqında yasəmənli yazı hazırlayırdım. Ona görə "yasəmənli yazı" deyirəm ki, sən də bu dünyalarca məşhur hollandiyalı rəssamın elə-belə növbətçi yazıya deyil, məhz "yasəmənli" yazıya, hətta qərənfilli-qızılgüllü-oleandrlı yazılara layiq olduğunu bilirsən. Ömrü səfalətsəfillik içidə keçən, aclığın çuxuryurd çevrəsindən çıxa bilməyən Van Qoq. Sağlığında bircə əsərini dəyərdəyməz qəpik-quruşa sata bilmişdi. İndi rəsmləri üstündə azı 77 milyon dollara baş yarırlar. Hazırda Pikasso ilə bərabər dünyanın ən bahalı rəssamı hesab olunduğunu da bilirsən. Bu da məxluqatın – xəlq olunanın, Adəm övladının namərdliyi, bivecliyi!

**Canım-qardaşım Azər!**

Amma Van Qoqla bağlı məni ağrıdan bir küfr var ki, onu da əmanətdar əlavə etməliyəm. Çünki imam Sadiq də (ə) söyləyib ki, əmanəti sahibinə qaytarın, hətta Hüseyn ibn Əlinin (ə) qatili olsa belə!

Əmanət də budur ki, indi düzüdünyada daha çox Van Qoqun adı ilə tanınan şəhər əhli o vaxtlar şəhər merinə şikayət məktubu yazıbmış ki, bəs deməzsənmi, bu dəliyə yiyə durun, yoxsa yuxumuza haram qatır (ay sizi yatılı qalaydınız! – İ), yediyimiz gedib dənciyimizə də çatmır.

Mən Van Qoqla bağlı yazıma Beynəlxalq Səhiyyə Təşkilatının bu xəvaric xəbərini də əlavə eləmişdim: hər il Yer üzündə 800 min (!) insan intihar edir. Qarşısı alına biləcək ölüm səbəblərində dərin kədər, ümidsizlik, peşmançılıq, təhrikedici davranışlar, daxili miqrasiyalar, özünə qapanmalar yaşandığı gözüyaşlı günahları kimdə görək, hansı sarp qayalara yazaq?..

Sənə sirr saxlamağa taqətin olduğu üçün az qala südəmər dövrdən qalma bir sirr açmaq istəyirəm. Əslində uçqar sözümün canı da elə bu sirdədir: Van Qoq haqqında olan həmin yasəmənli yazını əslində Mirzə Qələmə görə yazmışdım. Çünki o, xeyli müddətdi intihar istiarələri ilə yaşayırdı, süqutun və sükutun bircə addımlığında idi. Onu Allahın möhtərəm buyurduğu cana qəsd eləməməyə çağırmaq istəyirdim. Eynən dan yeri sökülmək bilməyən gecələrdə səhərəcən oyaq qalıb kirəmk iqtidarında olmayan qumrular misallı, hönkürmək istəyirdim ku, həyat insana Uca Yaradan tərəfindən verilən ən nurani, ən gözəl və ən böyük nemətdir.

Tez-tələsik olduğu üçün sənin dəfninə də elə o "yasəmənli" yazıyla getdim. Məgər hər təsadüf və zərurətdə, hər hərəkət və sükunətdə, hər fədakarlıq və fəsadda, hər dərdə şəriklik və şəfaətdə Allahın bir işarəsi, bir rəmzi yoxdumu? İndi mənə belə gəlir ki, sənin dəfninə "Sərv ağaclarıyla buğda zəmisi", "Günəbaxanlar", "Ulduzlu gecə", "Arlda körpü" kimi əmanətdar əsərlər müəllifi hollandiyalı vəfadar Van Qoq da gəlmişdi və sənin dəfn günündə o reyhanəli rəssam avropalıdan daha artıq Qarayazılı idi. İztirablarının cəminə intiharla son verən vətənsiz və vilayətsiz Van Qoq... Bir dəfə sənin səmimi əmin yerində olan, həmyerlin, qarayazılı (təkcə qarayazılımı?) gözəl şair Afiq Muxtaroğluna da demişdim: bilsəm ki, mənim dəfnimə Van Qoq, Vaqif Bayatlı, Sərdar Əsəd gələcək, o vaxt mən gündoğandan-günbatana yeddi dəfə ölməyə də hazıram.

**Canım-qardaşım Azər!**

Sizin dirəyi büdrəyən, daşı şehləyən, ümidi ayaqüstəcə qax-qurud olan evinizdən sənin vida məktubunla qayıtdım və həmin məktubu da, sonradan İslam əminin ("Gürcüstan" qəzetinin redaktoru hörmətli İslam Əliyevin) sənin haqqında yazısını da Mirzə Qələmə yolladım.

Əyriqarın ətəklərinə yaxın artıq təsbeh çevirən qocaya çevrilmiş Mirzə Qələm dünən mənə Herman Hessenin "Yalquzaq" adlı kitabının içində bir məktub göndərib. Oxuyuram: "Yalquzaq" intihardan vaz keçilsin deyə yazılıbmış; amma sən demə, bu kitabı oxuyanın hər yüzüncüsü "yarıtmaz rejissor" ucbatından alnının Ay doğan yerinə vida düzəlişi etməli olub. Bir bulmacanı yəqin bil: məni Azər xilas etdi. Mən heç olmasa Azərə görə yaşamalıyam. O, bu qəsdə bəlkə də məxsusi məni xilas etmək üçün qıydı. İndi mən məcbur olub yaşamalıyam: özü də elə-belə, təkcə həyat və həyət qarışıq deyil, məhz Günəş və Ay necə məcburdursa, elə məcbur yaşamalıyam".

...Sənə bunu da deyim ki, Mirzə Qələm bu günlərdə dünyaya gələcək nəvəsinə, əgər oğlan olarsa, sənin adını verəcəyini də yazmışdı...

**P.S.**

***Sən təkcə Mirzə Qələm üçün deyil, mənim üçün də həmişə diri və durusan. Yoxsa bu məhi-taban məktubu dirilən dərdimlə yazardımmı? Qarayazıdan uzaqlarda silkələnib ulduzu tökülən gecələrə bu ürbənd üsulla dualarmı oxuyardım?..***

***Dünən atana zəng elədim. Nə dedim, nə demədim, kim kimə daha arazbarı təsəlli oldu? Şahismayıl müəllim mənəmi? Yoxsa mən onamı? Xatırlamıram vallah! Bir onu bilirəm ki, çölüm Qarayazıdan, içim Qaracaoğlandan oxuyurdu:***

*Mənə derlər: qəm yükünü sən götür,*
*Mənim yük götürən karvanımmı var?*

*...Üryan gəlib yenə üryan gedirəm,*
*Ölməməyə əldə fərmanımmı var?..*

***Canım-qardaşım Azər! Həmişə iyirmi yaşında qalan həm kiçik, həm ortancıl, həm də böyük qardaşım Azər!..***

**İbrahimxəlil**

# Şahlar Müseyiboğlu: *Çoxmillətli kəndimizi firavan və gözəl görmək istəyirəm*

**Vaxtanqisi kəndindən Qardabani rayon Sakrebulosuna seçilmiş majoritar deputat "Mühafizəkar"lar partyasından fraksiya sədri Əhmədov Şahları oxucularmıza təqdim edirik.**



*Şahlar Müseyib oğlu Əhmədov. 1952-ci ilin aprel ayında Qardabani rayonunda, ziyalı ailəsində göz açıb. O,1959-1969-cu illərdə Vaxtanqisi kənd məktəbində orta təhsil alır. 1970-ci ildə Azərbaycan Resuplikasinda Xalq Təsərrüfatı İnstitutunda sənayenin iqtisadiyyatı fakültəsinə daxil olur. 1975-ci ildə ali təhsilli Şahlar Müseyib oğlu doğma vətənina qayıdır . Elə həmin ildən də İctimai iaşə idarəsində əmək fəaliyyətinə başlayır. Uzun müddət orada işlədikdən sonra 1987-ci ildə Qardabani fəhlə kooperativində baş iqtisadçı vəzifəsində işləməyə başlayır. Şahlar Əhmədov 1993-2006-ci illərdə Gürcüstan Sərhəd Gömruk Departamentinin Vaxtanqisi sərhəd keçid məntəqəsində baş müfəttiş vəzifəsində çalışmışdır. 2006-2010-ci illərdə Şahlar Müseyib oğlu Vaxtanqisi kəndindən Qardabani rayon bələdiyyəsinə majoritar deputat seçilir. 2010-2014-ci ilin əvvələrinə qədər isə o, Qardabani rayon Dostluq Evində baş mütəxəssis və eləcə də həmin Dostluq Evində direktor vəzifəsində işləmişdir. 2014-ci ildə isə yerli Sakrebuloya keçirilən seçkilərdə yenidən Vaxtanqisidən rayon Sakrebulosuna deputat seçilir. Ailəlidir 3 övladı var.*

**- Şahlar müəllim, bu günə qədər kəndinizdə görülən işlər barəsində məlumat verə bilərsinizmi?**

- Onu deyə bilərəm ki, son illərdə kəndimizdə bir çox sosial problemlər həll edilib. Belə ki, kəndin mərkəzi magistral yolu asfalt döşəmə ilə bərpa edilib, yolun kənarlarına gecə işıqları quraşdırılıb. Kəndin elektrik xətləri kabelləşdirilib və eləcə də kəndimiz təbii qazla təmin olunub. Ancaq buna baxmayaraq, görüləcək işlərmiz də çoxdur .

**- Şahlar Müseyib oğlu, gələcəkdə görəcəyiniz işlər hansılardır?**

- Kəndimizdə görüləcək işlərin ən əsaslarından biri kənd məscidinin rəsimiləşdirilməsidir. Bu sahədə hazırda işlər aparırıq. Yaxın gələcəkdə kənd məscidi binasına ayrılan torpaq ərazisinin rəsmi qeydiyyatdan keçməsinə nail olacağıq. 10 km-ə qədər kəndarası yollara xırda çınqıllar döşənməsinə başlanılacaq. Bəzi yeni verilən həyatyanı torpaq sahələrinə gediş-gəliş üçün böyük kanalların üzərindən körpülərin salınması da kəndimizdə görüləcək işlərdəndir. Onu da bildirim ki, kəndimizdə görüləcək işlərdən biri də kənd sakinlərinin, eləcə də rayonumuzda yaşayan vətəndaşların Azərbaycana rahat gediş-gəlişi üçün Vaxtanqisi sərhəd keçid məntəqəsindən Azərbaycana minik avtomobillərinin buraxılmamasıdır. Bu barədə artıq rəsmi olaraq lazımi instansiyalara müraciət də edilib.

**- Şahlar müəllim, sizin kəndinizdə 10-a qədər millətin nümayəndəsi yaşayır...**

- Doğrudur, bizim kənddə 10-a qədər xalqın nümayəndəsi yaşayır. Bizim kənd beynəlmiləl kənddir. Hər xalqın nümayəndəsinə, onların adətənənələrinə bir-birimiz qarşılıqlı hörmətlə yanaşırıq. Biz xeyir-şərimizdə bir-birmizə dəstək oluruq. Bizim çoxmillətli kəndimizdə hər kəsin amalı kəndimizi firavan və gözəl görməkdir. Buna da rayon rəhbərliyinin, eləcə də, dövlətimizin diqqəti və qayğısı nəticəsində mərhələ-mərhələ nail oluruq.

**Nadir Almazoğlu**

# Marneuli şəhərində bələdiyyə zibilxanasının müasir standartlara uyğun yenidənqurulması məqsədi ilə aparılan tikinti işləri sona çatdı

Regionların inkşafı və infrastruktur nazirinin müavini Qiorqi Qoberidze MMC "Gürcüstan-məişət qalıqlarının idarəçiliyi" şirkətinin direktoru Qiorqi Şuxoşvili, Marneuli rayon icra başçısının müavini Temur Beridze və rayon Sakrebulonun sədri Nəbi Abdullayev ilə birgə yenidən qurulmuş zibilxananı gözdən keçirib.

Marneulidə zibilxana 1999-cu ildən istismara verilib. Onun sahəsi 76870 m² təşkil edir. Hər gün poliqona orta hesabla 63.3³ tullantı yerləşdiriləcək. Zibilxana 2013-cü il sentyabrın 13 də "Gürcüstan-məişət qalıqlarının idarəçiliyi" şirkətinin ixtiyarına keçib.

Həmin vaxtadək strateji önəm kəsb edən zibilxana ekoloji və sanitar normalara cavab vermirdi. Standartlara cavab vermədiyindən ətraf mühitə ziyan vurur, yerli əhalinin həyatını təhlükə altına alırdı. "Gürcüstan-məişət qalıqlarının idarəçiliyi" şirkəti, regionların inkişafı və infrastruktur nazirliyinin vasitəsi ilə zibilxananı standartlara uyğun inşa etmək məqsədi ilə tikinti işlərini həyata keçirdi. Bununla da daxili poliqon yolları, suyun süzülməsi üçün arxlar salındı. Zibilxananın ətrafı hasarlandı, gözətçi köşkü yarandı, yanğın lövhəsi, zibilxanı göstərən və qadağa lövhələri quraşdırıldı.



Yenidənqurma işləri layihəsi 529, 929 larini təşkil etdi. Layihə dövlət büdcəsindən maliyyələşib. Onu hərracda qalib gəlmiş MMC "Lika" həyata keçirib. Layihənin gedişatında 26 yerli sakin işlə təmin olunub.

# Gürcüstan parlamentinin komitə sədri: *"Əcnəbi vətəndaşlar Gürcüstanda 20 hektaradək torpaq ala bilərlər"*

"Fevralın əvvəlindən Gürcüstan parlamentində torpaqların alqı-satqısı və özəlləşdirilməsi, habelə torpaqlara əcnəbi vətəndaşların investisiya yatırması və digər məsələlərə aydınlıq gətiriləcək. Bu il qəbul olunacaq "Gürcüstanda kənd təsərrüfatı torpaqlarına sahib olmaq haqqında" qanun layihəsi ilə bağlı müzakirələr aparılacaq".

APA-nın Gürcüstan bürosunun məlumatına görə, bunu APA-ya eksklüziv açıqlamasında Gürcüstan parlamentinin aqrar komitəsinin sədri Qiqla Aqulaşvili bildirib.

Komitə sədri Gürcüstanda yaşayan soydaşlarımızın kompakt yaşadığı Saqareco, Qardabani və Marneuli rayonlarında torpaqların alınması və özəlləşdirilməsi məsələlərində olan nöqsanlara da münasibət bildirib: "Bu məsələlərlə bağlı biz keçən il moratorium elan etdik və öhdəlik götürdük ki, torpaqla bağlı nöqsanlara maraqlı insanların iştirakı ilə baxılsın və əcnəbilərə torpaq satılması məsələsi həlelik dayandırılsın. Əvvəllər hər bir insan məhdudiyyət qoyulmadan nə qədər torpaq istəsə, ala bilərdi. Bu məsələdə əcnəbilər fırıldaqçılar və əvvəllər dövlət qulluqçuları olmuş şəxslərlə əlbir olaraq, kənd təsərrüfatı torpaqlarına sahib çıxırdılar. Bundan da bizim vətəndaşlar əziyyət çəkirdilər. Çünki onlara düzgün məlumat verilmirdi. İndi bu proses açıq olacaq. Biz bu qanunu qəbul edərkən özəlləşdirilmiş torpaqların satılmasına qadağa qoymuruq, hökumətin yeritdiyi siyasət çərçivəsindən kənara çıxmırıq. Bilirik ki, Gürcüstanda əkin torpaqları çox azdır, lakin 700-800 min nəfər torpaq sahibi var. Orta hesabla hər adama 1 və 1,5 hektar torpaq düşür. Bu, çox azdır. Buna görə də vətəndaşlarımızın torpaq alqı-satqısı hüquqlarını pozmaq istəmirik".

Q. Aqulaşvili bildirib ki, qanun qəbul edildikdən sonra əcnəbi vətəndaşların müəyyən edilmiş şərtlərlə torpaq almağa qadağa qoyulmayıb: "Gürcüstan parlamentində qanun qəbul edildikdən sonra fiziki şəxs olaraq əcnəbi vətəndaş 5 hektardan 20 hektaradək torpaq ala bilər. Bu sahədə hökumətin təşəbbüsü ona aparıb çıxarır ki, torpaq sahibləri müasir texnologiyadan və texnikadan istifadə etməklə torpağı biznes sahəsinə çevirsinlər. Bu prosesdə yerli sakinlər də iştirak edəcəklər və əvvəl baş verən anlaşılmazlıqlar olmayacaq. Lakin əcnəbilərin torpaq sahibi olması üçün bir neçə şərtin olması vacibdir. Əcnəbi vətəndaş Gürcüstanda ailə qurarsa, ona ölkədə yaşamaq hüququ veriləcək. Bu qanun aktı ilə torpaq almaq istəyən və torpağı müasir texnologiyadan istifadə edərək becərən şəxslər üçün torpaq və digər məsələlərlə bağlı alqı-satqı prosesi açıqdır. Əgər parlament "Gürcüstanda kənd təsərrüfatı torpaqlarına sahib olmaq haqqında" qanun layihəsini qəbul etsə, bu sahədə heç bir problem olmayacaq. Bu qanunun qəbul edilməsi nəticəsində əcnəbi vətəndaşların Gürcüstanda torpaq alması və özəlləşdirməsi məsələsində heç bir hüquqi maneə olmayacaq".

Gürcüstan parlamentinin aqrar komitəsinin sədri iki il öncə əvvəl torpaqların İran, Hindistan və digər ölkələrdən gələn şəxslərə satılması məsələsinə aydınlıq gətirib: "Əlbəttə ki, bununla əlaqədar çoxlu narazılıqlar var. Əgər vətəndaşların hüquqları pozulubsa, onlar məhkəməyə müraciət etməlidirlər. Gürcüstanda azərbaycanlılar da mütəmadi olaraq torpaq məsələləri ilə bağlı şikayət edirlər və çox vaxt onlar parlamentin aqrar komitəsinə müraciət edirlər. Sözsüz ki, biz onlara öz məsləhətlərimizi veririk. Narazı olan vətəndaşlarımız ölkə prokurorluğuna müraciət etməlidirlər. İndiyədək prokurorluğa 25 min ərizə daxil olub. Prokurorluq bu ərizələri tədricən araşdırır".

**Nizami Məmmədzadə**

# Kənd təsərrüfatı istiqamətində "Gürcüstan – 2020"-nin siyasəti

Kvemo Kartlinin kkpress.ge informasiya portalı, oxucuları ölkənin sosial-iqtisadi inkişaf strategiyası "Gürcüstan 2020" ilə tanış etməkdə davam edir. Bu dəfə strategiyanın kənd təsərrüfatının inkşafı baxımından nəzərdə tutduğu maddələrdən danışacağıq

"Gürcüstan – 2020"-nin bu sahəni inkişafı üçün seçdiyi siyasət düzgündürmü? Mövzu haqda ölkə hakimiyyətinin bütün istiqamətlərdə gördüyü işlərin pulunu məhz vətəndaşların ödədiyini yaxşı bilən ittifaqın rəhbəri danışır.

Qiqla Mikautadze Vergi Ödəyənlər İttifaqının rəhbəridir. "dövlət pulu mövcud deyil, mövcud olan vergi ödəyənlərin puludur"-ittifaqın rəsmi səhifəsində ilk gözümüzə dəyən Tetçerin məşhur frazasıdır.

Mikautadze deyir ki, hələ elə bir strategiya xatırlamır ki, tam sona çatdırılmış olsun. O, strategiyanın yazılmasına böyük zamanın və ehtiyatların xərclənəcəyini zənn etmir.

Hakimiyyətinöznöqteyi-nəzərivəstrategiyasının olması heç də pis deyil. Hansı sahənin inkişafına necə nail olmaq istəməsini öyrənirik. Amma strateqiyada proqnozlar vermək, ehtimal etmək düzgün deyil. Məsələn, strateqiyada 2020-ci ildə ölkənin gəliri filan qədər olacaq və rəqəm göstərmək real deyil. Ölkədə daim dəyişən külli sayda faktorlar var. Bu faktorlar mütləq nəticəyə öz təsirini göstərəcək.

Kənd təsərrüfatında 2020-ci il üçün mövcud olan fərziyyələrə gəldikdə isə mən tamamilə onlarla razılaşıram. Zənnimcə problemi düzgün yol ilə aradan aldıracaqlar

Strateqiya müəllifləri iki əsas istiqamət götürüblər. Birincisi, kənd təsərrüfatının infrastruktur inkişafı və ikincisi, bu sahəyə müasir texnologiyaların cəlb olunmasıdır. Bu istiqamətlərin ikisi də vacibdir.

Burada onuda qeyd etmək lazımdır ki, meliorasiya yönündə atılan addımlar təqdirəlayiqdir. Amma daim müəyyən kilometr suvarma arxı təmizləndi və s. deyilən zaman suyun qənaətlə xərclənilməsinin vacibliyindən də danışılmalıdır,"- Qiqla Mikautadze bildirir.

Onun fikirincə, Avropa bazarına çıxmaq üçün sahənin inkişafında bu iki istiqamət böyük mahiyyət daşıyır. Aqrosığorta sistemini inkişaf etdirmək isə torpaq sahələrinin rəsmiləşdirilməsi və fermerlərə dəstək vermək deməkdir.

O, hesab edir ki, 2020-ci il fəaliyyət planında aqrosığorta sisteminin subsidləşdirilməsi nəzərə almaq-müsbət nəticə verər və indi, sözügedən sahədə sığorta mədəniyyətinin olmadığı bir zamanda buna ehtiyac böyükdür. Onun sözlərinə görə, kənd təsərrüfatının inkişafı üçün xarici investisiyalar olmalıdır və xaricilərin Gürcüstanda torpaq almasında onlara mane törədən qanun bu sahənin, ümumiyyətlə ölkənin iqtisadi inkişafını geri salır.

"Bizim təşkilat kənd təsərrüfatı sahəsində olan dövlət müəssisələrində araşdırma apardı. Bu müəssisələrin get-gedə uduzduğu aydınlaşdı. Biz hökumətə məsləhət gördük ki, bu müəssisələr özəlləşdirilsin. Hökumət bizim məsləhəti qəbul edib. Bildiyimə görə xarici investorlar axtarılır.

Bu isə dövlətin biznes ilə məşğul olmamasına dəlalət edir. Dövlət biznes ilə məşğul olmamalıdır. Onun işi, sahənin inkişafı üçün siyasət yürütməkdir. Lazımi istiqamətləri daimi deyil, müəyyən müddətlik subsidləşdirmək artıq dərəcədə özəl investisiyaları dəstəkləmək lazımdır. İlk növbədə, resursları işində maraqlı olan, istehsalı genişləndirməyə çalışan fermer və biznesmenlərə xərcləmək vacibdir."- deyə Vergi Ödəyənlər İttifaqının rəhbəri Qiqa Mikautadze vurğulayır

O, əlavə edir ki, kənd təsərrüfatı kooperativləri və s. birlikləri yaratmadan, inkişaf etdirmədən təsərrüfatçıların assosialaşma müqaviləsi ilə Gürcüstanın Avropa bazarına çıxma imkanından real olaraq istifadə etməsi müşkül məsələdir

"Gürcüstan – 2020" fəaliyyət planında kənd təsərrüfatının inkişafı üçün aqrosığorta proqramının subsidləşdirilməsi ilə birgə elmi araşdırmalara, müasir texnologiyalarla təchizatı, yolların yol infrastrukturasının inkişafı və kooperativlərə dəstək də nəzərdə tutulub.

Kənd təsərrüfatında edilən hər bir dəyişiklik ilk növbədə bu sahədə çalışan, ölkədə işlə təmin olunanların 50%-in təşkil edən insanlarda özünü büruzə verəcək.

**Manon Bokuçava**

***Material "informasiya azadlığı institutu"nun (IDFI) Dabremen Universitetinin "Gürcüstan – 2020 strateji planı-vətəndaş məşğulluğunu gücləndirmək" layihəsi çərçivəsində hazırlanıb.***

***Layihə Almaniya Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə həyata keçirilir.***



# Coşqun Cəfər: *“Ən sevdiyim yazar Tanrı, ən sevdiyim əsəri alnıma yazdığı yazıdır”!*



***Son zamanlar Gürcüstanın azərbaycanlı əhali arasında gənclər və yaşlı nəsil tərəfindən ən çox eşitdiyim şikayət gənclər ədəbiyyata maraqsıdırlar, kitablar oxumurlar, yazamırlar və s. kimi sözlərdir. Bu problemi araşdırmaq üçün gənc yazarlar axtarışına düşdük, şöbəmizin nəzdində “Gənclik” kitab klubu yaratdıq, sosial şəbəkəmizdə klubun səhifəsini yaradaraq klassik və müasir əsərlərlə gəncləri tanış etdik və gənclərin əsərlərini və şeirlərini dərc etdik, gənc yazarlar müsabiqəsini keçirdik və problemin o qədər də dərin olmadığını gördük. İstedadlı yazarlarımız var, sadəcə onlara istiqamət və dəstək verənlər yoxdur. Bu da danılmaz faktdır. Azərbaycanlıların Mədəniyyət Mərkəzi olaraq bu məsələ ilə ciddi məşğul oluruq. Yazarlarımızın içində və gənclər arasında ən populyar yazarlardan biri, şair Coşqun Cəfərdir desəm yanılmaram. Onun şeirləri dillər əzbəri, məqalələri isə çoxlu səs-küyə səbəb olubdur. Coşqun Cəfərin sədası sosial şəbəkələrdən, yazarlar forumundan, mədəniyyət və ədəbiyyat qəzet və saytlarından gəlir. Kimdir Coşqun Cəfər? Coşqunu onu tanımayan və ya yaxından tanımaq istəyən oxucularımızla tanış etməyə çalışacam.***

**-Səni salamlayıram, Coşqun. Biraz özün haqqında danış ki, biz səni daha yaxşı tanıyaq..**

-Salam, Nərgiz. Düşünmürəm ki, hələ özüm haqqında danışacaq qədər zəngin avtobioqrafiyaya sahibəm. Mütaliə elə bir vadidir ki, nə qədər çox oxuyursan, o qədər az bildiyini görürsən, öyrənirsən. Elə yazdıqlarım boydayam. Adətən bu sualın cavabında titullarını, medallarını, vəzifələrini, uğurlarını sayırlar. Mənimsə hələ ki, yeganə uğurum titulsuz, vəzifəsiz, mükafatsız ədəbiyyata inamımdır.

Yazarlıq eqomu isbat etmək üçün imzamın qabağına hansısa birliyin üzvü, hansısa qəzetin redaktoru, sədri, müdiri, ümumiyyətlə hansısa yarliki, titulu yapışdırmağa ehtiyac duymuram. Əksinə, bunları həmişə özümə, yazdıqlarıma buxov bilirəm. 26 yaşım var. Tiflis Dövlət Universitetində oxuyuram... Yazıram...

**-Neçə yaşından yazmağa başladın və bunu sənə nə və ya kim vadar etdi? İlhamı nədən alırsan?**

-Mənim üçün yazarın xarakteristikasını təşkil edən ikicə dənə ilkin şərt var: həssaslıq və xəyalgücü. Xəyalgücümü 10-cu sinifdə oxuyanda kəşf etdim: Sinifdə oğlanlar dərsdən qaçıb voleybol oynamağa gedirdilər. Bu da məktəb direktorunun ciddi danlamalarıyla nəticələnirdi. Mən dərsə girirdim. Amma qurunun oduna yaş da yanırdı. 11-ci sinifə keçəndə sentyabrın 1-də bir qalın dəftər tutdum. Və günlük yazmağa qərar verdim. Məktəbdə baş verən hər şeyi qeyd edəcək, danlamalardan amanda qalacaqdım. Məktəbdən qayıdanda bağçada oturub məktəbin ilk gününü yazmağa başladım. Evdən çıxışdan düz evə dönüşə qədər təsvir etdikcə bir də baxdım ki, dəftər artıq dolub... Xəyalgücüm mənə tək gördüklərimi yox, görmək istədiklərimi, 10 ildə məktəbə gedərkən heç fikir belə vermədiyim ən xırda detalları, hadisələri, görüntüləri sözə çevirtdirmişdi. Yazmağın qoxusunu, şirinliyini elə o gün kəşf etmişdim. Sonralar ciddi mütaliə etdikcə xəyalgücümün qanadları daha da itiləşdi və ətrafımda gördüyüm hadisə və adamlara həssas yanaşmamla xəyalgücümün evliliyindən yazdıqlarım dünyaya gəldi, doğuldu...

**-Şeirlərinin heyranlarından biri də mənim olduğumu bilirsən. Sənin yaradıcılığını diqqətlə izləyib sevirəm. Bəs sənin üçün hansı janr daha yaxındır və gələcəkdə hansı janrla daha çox məşğul olmaq istəyirsən?**

-Mətnin janrı yazı prosesi sona çatanda məlum olur. Yazar üçün ümumiyyətlə, yalnız və yalnız mətn var. Geridə qalanlar şərtidir. Yazmaq, azmaq, qəzaya düşmək kimi bir şeydir, bilmirsən başına nə gələcək.

**-“21 əsrin qadınına elegiya” şeiri mənim fikrimcə, sənin şah əsərindir:**

*Yaşadığın ömrə bax;*
*Hər gün aldadılarsan,*
*Hər gün unudularsan,*
*Sənə xəyanət etmək dəb olar bu ölkədə.*
*Hər gün alçaldılarsan*
*Kimisə ucaltmaq üçün*
*Fəryadına yetmək üçün*
*Nə bir bəndə, nə bir allah tapılar bu ölkədə.*
*...Çölün buz, için ocaq!*

**Sən o şeirlə bəzi kişilərə şillə vurdun:**

*Sənin yaşamağın elə intihardı;*
*Qayğılar axşam-səhər keçər boynuna ip kimi.*
*Cibi dolu, ürəyi boş olanlar*
*Adı kişi özü oğraş olanlar*
*Sürünərlər arxan ilə it kimi...*

**Bu şeirdə qadına şiddət, hörmətsizlik və digər kimi mövzular var. Bəlkə də haqsızlığa məruz qalan bir çox qadın bu şeirdə özünü tapdı. Qadının yaşantılarını bu şeirdə əks etdirəcək nə gördün sən?**

- Patriarxal bir cəmiyyətdə yaşayırıq. O şeirdə təsvir olunan qadına mən hər gün hər yerdə rast gəlirəm: küçədə, yolda, avtobusda, metroda, mağazada, bazarda, universitetdə... qonşuda, qohumda, hər yerdə. O şeirdəki qadın gördüyüm əzilmiş bütün qadınların ümumiləşdirilmiş obrazıdır.

**-Necə oldu da bu şeir yarandı və kişilər səni tənqid atəşinə tutmadı ki, bu şeirdən sonra?**

-Şeirin necə yaranmasını bir az öncə açıqladım. Hər gün gördüyüm müxtəlif hadisələr, epizod və obrazlar... Qaldi ki, kişilərin tənqidinə, oldu, cavab da verdim: hətta qadını fahişə edən də kişi fahişəliyidir.

**-Ümumiyyətlə tənqidə tez-tez məruz qalan, qalmaqallı şairsən. Tənqidi necə qəbul edirsən?**

-Olduqca normal. Tənqiddən öz mövqeyinə inanmayanlar qorxar. Bütpərəstliyin hər növünə lənət!

**-Məqalələrinin əksəriyyəti mühitimizin, gündəmimizin tənqidinə yönəlib, bunun səbəbi nədir?**

-Mən heç bir təşkilatın, partiyanın üzvü deyiləm. Buna görə də əlbəttə ki, heç kimlə, heç bir qurumla, millətlə şəxsi düşmənçiliyim ola da bilməz. Amma şəxsən mənim tənqidi yazılarıma fərqli izahlar, yozumlar verib məni “qaralayanlara”, məni millət-xalq, vətən düşməni adlandırıb, idealoji, ədəbi, fikri cavab və iradlarla deyil, kütlə psixologiyasına hesablanmış “şüvənləmə” ilə xalqı üstümə qaldıranlara elə burdaca inandığım tənqid konsepsiyasını demək istəyirəm. Yazılarımın və bundan sonra yazacaqlarımın iki tənqid obyekti var: 1. Sistem; cəmiyyətimizin inkişafına, rahatlığına, xoşbəxt və azad yaşamına mane olan, azad sözü, düşüncəni dalana dirəyib sıxışdıraraq buxovlar yaradan, intellektual çiçəklənməni zəhərləyib yerində qanqallar bitirən, bir sözlə xalqın oyanmasına deyil, yuxulamasına, cəhalətə yuvarlanmasına zəmin yaradan bütün ideologiyalar, ideyalar, dəyərlər, normalar, izm-lər, qanunlar, qaydalar, fikirlər... 2. Bu sistemin daşıyıcıları, həyata keçirən, yaxud keçirilməsinə kömək edən, bir balaca əli olan hamı: ziyalılar, deputatlar, müəllimlər, yazarlar, şairlər, ruhanilər, QHT-lər, özünü elita adlandıran hamı... Əzilmişin ürəyinə, hüququna, xöşbəxtliyinə, azadlığına toxunan bütün toxunulmazlara toxunmaq lazımdır. Yalnız bu zaman vətəndaş cəmiyyəti qurmaq, sağlam cəmiyyət formalaşdırmaq mümkün olacaq. Bu konsepsiya məhz bu gün bizi söyən xalqa xidmət edir.

**-Gənclərimizin əksəriyyəti son zamanlar olduqca aqressiv mövqedən çıxış edirlər desəm yanılmaram. Tənqidi yazıların çoxu bizim özümüzə - yəni icmamıza yönəlib; kimi gəncliyimizi, kimi böyüklərimizi, kimi mühiti, kimi isə çıxdığı, böyüdüyü kəndi bəyənmir. Səncə gənclərimizin yalnız neqativ fikirlərə və məqalələrə can atması nə ilə əlaqəlidir?**

-Tənqid o cəmiyyətlərdə qəbul olunmaz olur ki, orda hamı hər şeyi bir rəngdə görmək istəyir,orda yalnız bir dünyagörüşün diktatorluğu hökm sürür. Tənqidi normal qarşılamaq lazımdır buna görə ki, dünya bir rəngdə deyil, alternativ fikirlərin, baxışların, təhlillərin olması göyqurşağı rəngdə, işıqlı bir cəmiyyətin yaranması deməkdir.

Qaldı ki, gəncliyin aqressiyası, tənqidinə, neqativ fikirlərə, məqalələrə can atmasına - normaldır, bundan qorxmaq lazım deyil. Əksinə, bu olmasaydı anormallıq olardı. Necə yəni, bu qədər problemin, deqradasiyaya uğramış mədəniyyət və dəyərlərin, funksiyasız ədəbiyyatın və təhsilin olduğu bir cəmiyyətdə tənqid olmasın? Bəlkə gənclik hələ gəncdir, həyat təcrübəsi yoxdur, amma o daim axtarışdadır, alternativ mədəniyyətlərlə, cəmiyyətlərlə tanış olub onları öz ölkəsinə, cəmiyyətinə transfer etmək istəyir. Tənqidi də buna görə edir ki, inkişaf yolları axtarır.

**Amma əsl sual budur ki, yaşlı nəsil niyə daha çox aqressivdir?**

Mən hələ bu zamana qədər üzümə mehribanca gülən, özünə əminliklə başımı sığallayıb, başımdakı dumanlı fikirləri öz dolğun və qaneedici cavabları ilə darmadağın edən bir yaşlı nəsil nümayəndəsinə rast gəlməmişəm. Hamısı adama buxov, qandal təklif edir... Əlbəttdə ki, alternativ fikirləri, klassiklərini oxuyan, fərqli ziyalı obrazlarının bioqrafiyası ilə tanış olan gənclik aqressiv də olacaq, neqativ fikirlərə də köklənəcək.

**-Ümumiyyətlə Gənclik nə istəyir?**

-Gənclik iki yerə bölünür: qoca gənclik və gənc gənclik.

Qoca gənclik - hər şey istəyirlər: mal-var-dövlət, ev-eşik, məqam, vəzifə, titul, evlənmək, komfort, hər şey bahasına şey, hər şey...

Cavan gənclik - daha çox istəmirlər; kölə olmaq, hər şeyə boşboşuna inanmaq, savadsız qalmaq, idarə olunmaq, aldadılmaq, yaltaqlıq...

Qoca gənclik qocalara ona görə hörmət edir, susur, səsini çıxarmır, mövqe sərgiləmir, öz fikri, sözü yoxdur ki, öz işlərinin qabağa getməsi, istədiklərini almaq üçün onları yola verir, kullanmaq istəyir.

Gənc gəncliyin qocalarla arasında ona görə uçurum var ki, kullanılmaq isəmir. Onların aqressiyası, tənqidi də bu istəmədiklərini almaq üçündür.

**-Coşqun Cəfərin şeirlər kitabını əlimizdə tutub doyunca oxuya biləcəyikmi yaxın zamanda?**

-Kitab oxumayan cəmiyyətdə kitab çıxarmaq 1000 dollarlıq telefon alıb kontur yükləməmək kimi bir şeydir. Bizdə maraq daha çox dini kitablaradır, nəinki ədəbiyyat, fəlsəfə və s. Marneulinin göbəyində 10 ildir fəaliyyət göstərən dini mağazanın aktivliyinin kitabxanalardan daha çox olması bu dediklərimə sübutdur. Əlbəttə, bunun günahkarı bir az cəmiyyətdirsə, bir az da “yazar sürüsü”dür. Ağızlarına və ağıllarına gələni yazıb oxucuyla yazar arasında uçurum yaradıblar. Yazarlıqsa hamının ağlına gəlməyən, yazanın ağzına gətirəməyəcəyini ifadə etmək, yazmaq sənətidir. Cəmiyyət öz yazarına inanmır. Bu inamı bərqərar edib, oxucu-yazar münasibətlərini tənzimləmək lazımdır ilk öncə. Sonra kitab haqqında düşünərik.

**-Roman yazmaq fikrin, həvəsin varmı?**

-Bizim buralarda nəsr ənənələri hələ ciddi inkişaf etməyib. Borçalının problemlərini, olub-bitənini əks etdirən ciddi, sanballı bir dənə də nəsr nümünəmiz yoxdur. Əlbəttə, çox istərdim bu boşluğu mən doldurum. Dolduracam da.

**-Ən sevdiyin əsər və yazıçı kimlərdi?**

-Ən sevdiyim yazar Tanrı, ən sevdiyim əsəri alnıma yazdığı yazıdır:sujetsiz, obrazlar darmadağın, janrı naməlum, heç bir dilə tərcümə olunmur.

Nərgiz, sevdiyim yazar və əsərlər haqqında danışsaq, gərək qəzetinizin son bölümünü mənə həsr edəsiniz (gülür). Ancaq son oxuduğum Knut Hamsunun “Misteriyalar” romanında Nagelinin gördüyü yuxular bizim yazarların yazdığı reallıqlardan daha maraqlıdır...

**-Sevgiyi şairdən soruşmamız gərək, sevgi sənin aləmində nədir?**

-Sevgi tam olaraq ifadə olunan bir hiss olsaydı daha bu suala ehtiyac olmazdı. Onun ifadə olunmazlığı bu sualı hələ də açıq saxlayır;

*Sevgi sözə çevriləndə bəkarətini itirir,*
*Hərarətini itirir,*
*Təravətini itirir,*

Bu hissi sözə çevirmək sevməklə antonimdir!

Sevgi mənim aləmimdə təqribən Kolobluq kimi bir şey. Hindistan (öz ruh, təfəkkür, təxəyyül dünyana uyğun biri) axtarışı. Sənin şansına Amerika da çıxa bilər, Vatikan, Afrika, Azərbaycan, Marneuli, lap elə Gorarxı da... Hansısa məhəllə də... Hər şey bir az gəmini necə sürməyindən, əlində tutduğun xəritədən asılıdırsa, bir az da dənizdəki havadan, dalğalardan, gəminin yelkəninə təsir edən, səndən asılı olmayan kənar amillərdən asılıdır ki, kimə gedib çıxacaqsan. Ən faciəvi sevgisə o zaman başlayır ki, sənin şansına hər gün batmaqda olan Yunanıstan çıxır...

**-Oxucularımıza və gənclərə məsləhətin və arzun.**

-Məsləhəti ağsaqallar verər, heç bir gəncə məsləhət vermək məsləhət deyil. Arzumsa: harda, hansı düşərgədə, hansı ideologiyada olursaq olaq özümüz olaq. Bütün uğurların açarı budur.

*Söhbətləşdi:*
**Nərgiz Əliyeva**



**Elmuraz Köçəri**

### Tanıya bilmədik bir-birimizi

Nə yaman vurulduq, nə tez sevişdik?
Bir suda qaynayıb, bir odda bişdik.
Heç yerdə olmayan sevdaya düşdük,
Tutmadıq vaxtında öz yerimizi,
Tanıya bilmədik bir-birimizi.

Bilmədik qəlbimiz nələrnən dolu?
Sən varlı qızıydın, mən kasıb oğlu,
Getmədin mənimlə mən gedən yolu,
Kim qaldı-bilməyə son sirrimizi?
Tanıya bilmədik bir-birimizi.

Qəlbimi səninlə bölmüşdüm yarı,
Nə çəkdim-bir dəfə duymadın,barı,
Mən çiçək tərəfə, sən daşa sarı,
Sən xərçəng bürcündən,mənsə tərəzi,
Tanıya bilmədik bir-birimizi.

Yetişdi çox bahar,ötdü çox payız,
Bilmədik-haraya gedir dünyamız?
Sən hara,mən hara, ay yaramaz qız?!
Mən sevgi adası, sən od dənizi,
Tanıya bilmədik bir-birimizi.

Gah gözə soxuldun,gah gözdən itdin,
Axır ki,hər şeyin sonuna yetdin,
Gör kimə qoşuldun, gör kimə getdin?
Gülürəm,gör kimlər ayırıb bizi?
Tanıya bilmədik bir-birimizi.

Dəyişmiş baxışlar, dəyişmiş bədən,
Nə lazım soruşmaq gələn-gedəndən,
Üzümüz qırışlar, saçlarımız dən....
Sənin də,mənim də solub bənizi,
Tanıya bilmədik bir-birimizi.

### Səndən başqasını sevə bilmədim

Sən getdin, arxanca getdi hər şeyim,
Çevrildi həyatım, döndü taleyim,
Yenə də səndəndir sənə gileyim:
Səndən başqasını sevə bilmədim.

Qoymadı son dəfə deyim "əlvida",
Hər şeyin sonuna qoyduğun nida.
Sənə həsrət qaldım sənli dünyada,
Səndən başqasını sevə bilmədim.

Dolandım çölləri,çəməni sevdim,
Atamı,anamı, Vətəni sevdim,
Çoxuna rast gəldim,tək səni sevdim,
Səndən başqasını sevə bilmədim.

Çox oldu sağımdan,solumdan girən,
Çıxıb cığırımdan,yolumdan girən,
Qəlbimə girmədi qolumdan girən,
Səndən başqasını sevə bilmədim.

Üzünə çəkmirəm, əsla,utanma,
Atanda yanmadın, indi də yanma,
Göstərdim kimisə, xoşladım,amma
Səndən başqasını sevə bilmədim.

Bu həmin ürəkdir, həmin sədaqət,
Getmədin ürəkdən getsə də taqət,
Sən olan yerlərə çıxmadım, fəqət
Səndən başqasını sevə bilmədim.

Qəlbində bir insan gedir hər insan,
Gedəcəm, hamıdan gec duyacaqsan,
Bir gün baş daşımdan oxuyacaqsan:
"Səndən başqasını sevə bilmədim."



**Fəxrəddin Abdallı**

### Söz qalasıyam

Yazda kəndimizin ilham çağıdı,
Hüsnünə söz qoşub, saz çalasıyam!
Hələ açılmayıb sinə dəftərim,
Qapısı qıfıllı söz qalasıyam!

Kəndin sabahları açılan yerdə,
Dumandan üzünə çəkilir pərdə,
Kəndimin daşı da düşməsin dərdə,
Düşərsə dərdini mən alasıyam.

Kəndin gözəlləri göz qabağında,
Cavanlar şəhərdə qız sorağında,
Təbiət cuşa gəlsə çay qırağında,
Kövrəlib buludtək tez dolasıyam.

Adım Fəxrəddindir, kəndim Abdallı,
Mən burda qız sevdim yanağı xallı.
Gülüstan camallı, cənnət misallı,
Bu kəndin doğmaca öz balasıyam.

### Vətən sevgisi

Mənim üçün cənnət-məkan vətəndir,
Mən meylimi şiş dağlara salmışam.
Nəfəsimi "Şam düyə"dən, "Şindi"dən,
İlhamımı "Gur bulaq"dan almışam!

Qürbət eldə xoş güzaran gəzmədim,
Hara getdim qəribliyə dözmədim.
El-obadan heç əlimi üzmədim,
Göz açdığım yurda qurban olmuşam.

Qəlbim kövrək, ruhum teldən incədir,
Səcdəgahım Abdallıdır, Gəncədir.
Hər ikisi əbədi tər qönçədir,
Bəlkə səhvəm, mən xəyala dalmışam?

Fəxrəddinəm, dünyaya göz açalı,
Haçalıdır fikrim, zikrim haçalı,
Vətənimdir Azərbaycan, Borçalı,
İki dağın arasında qalmışam!

### Kimə qalacaq

Dərdimi hamıya açıb deməklə,
Kim gəlib dərdimi məndən alacaq?
Deyirlər, sevənlər huşsuz olurlar,
Sevməsən bu dünya nə cür olacaq?

Bir gözəl sevirəm, gözləri qara,
Haçandır eyləyib, məni avara,
Deyəsən, axırda çəkəcək dara,
Sonra da kövrəlib gözü dolacaq.

Hər yerdə hey onu axtarır gözüm,
Görəndə çaşıram, qurtarır sözüm,
Bülbülün yerinə ölərəm özüm,
Ölməsəm hiddətdən güllər solacaq.

Gözlərim günəşlə girir qol-qola,
Bir bulud keçəndə tez dönür qula.
Görəsən, sevgidən məst ola-ola,
Şirin xəyallara haçan dalacaq?

Fəxrəddin, təkliyə salıbsan meyli,
Bir sən deyilsən ki, yardan gileyli,
Səndən Məcnun olmaz, yarından Leyli,
Bu çöllər, çəmənlər kimə qalacaq?!

**Ziyadxan Əhmədli**



### Yaza nə qalmış?

Bir gözəl gördüm, qəmli dayanıb,
Əlləri qoynunda, xəyala dalmış.
Həzin sızıltılı, qəlbi niskilli,
Baxır uzaqlara, gözləri dolmuş.

Baxışları solğun dinmirdi nədən,
Hıçqırıb ağlardı yanıqlı, nəsdən,
Diksinib boylanmır bir kənar səsdən,
Saçları dağılıb, bənizi solmuş.

Ayrılıq yamandı, ötdü qəlbimdən,
Yanıqlı ah keçdi sakit dilimdən,
Nə deyə bilərdim, zaman əlindən,
Əzrail kimisə cənginə salmış.

Bu dünya yalandı, hamı köçəcək,
Gözündə parlayan, nuru sönəcək,
Ziyadxan, de, kimlər hara dönəcək,
Payız xəzanından, yaza nə qalmış.

### Sözə bax, Allah

Vəfalı insana dünya dar olmaz,
Qaşların altından gözə bax, Allah.
Boylanır dünyanı, xəyala dalır,
Sevgidən yaranan közə bax, Allah.

Danışır qəlbində, özü-özüylə,
Oturmur, durmur tərsa sözüylə,
İnsan kamilləşər İslam gözüylə,
Dodaqdan süzülən sözə bax, Allah.

Doludur sinəsi, danışmır, dinmir,
Gözündən yaş gəlir, dərdindən silmir,
Mənalı baxışdan özünü bilmir,
Şükür Yaradana, üzə bax, Allah.

Çayın zümzüməsi, gözün baxışı,
Çöllərdə güllərin elə naxışı,
Ürək sərinlədən bulaq axışı,
Döyünən sinədə düzə bax, Allah.

Zülmət gecələrin nurlu səhəri,
Faniləşən ömrün zərli kəhəri,
Necə alovlanır eşqin şəhəri,
Alovdan ucalan közə bax, Allah.

### Əllidən sonra



**İbrahim Mığırlı**

Çən-dumanı çəkər dağlar,
Əllidən sonra, qardaş.
Xəzandı, saralıb bağlar,
Əllidən sonra, qardaş.

Dağları qar tutarmış,
Vaxtsız yarpaq qoparmış,
Ormanı qırov sarmış,
Əllidən sonra, qardaş.

Güllər ətrindən olmuş,
Çiçək çətrindən olmuş,
Bülbül xətrindən olmuş,
Əllidən sonra, qardaş.

Sabah ümidsiz gəlir,
Günəş ağır yüksəlir,
Ömür-günüm gödəlir,
Əllidən sonra, qardaş.

Dizim tutmur, dayandı,
Düz qamətim kamandı,
Yalvarıram, amandı,
Əllidən sonra, qardaş.

Hökm keçmir ürəyə,
Ağrı verir kürəyə,
Baş əyirəm fələyə,
Əllidən sonra, qardaş.

O günlər qaldı gerdə,
Vəziyyətimi gör də,
Yollar böləndü dördə,
Əllidən sonra, qardaş.

Qismətin olanda mat,
Qədərin verəndə çat,
Dəyərli olur həyat,
Əllidən sonra, qardaş.

Sarılırıq qələmə,
Baş əydikcə aləmə,
Mətin dur, dərd eyləmə,
Əllidən sonra, qardaş.

Bir ərəbəm dəvəsiz,
Gəzirəm səssiz, səssiz,
Dünya neyləyər mənsiz,
Əllidən sonra, qardaş.

İbrahim, dərd əhliyəm,
Dağda məşhur ləliyəm,
Özüm yükümə şəliyəm,
Əllidən sonra qardaş,
Əllidən sonra qardaş.

**Çoban Rəşid**



### Xəlil Rza Ulutürkə

Qoy eşitsin bir dəfəlik,
Dərk eyləsin türk milləti!
Azadlığın gur səsidi,
Ədalətdi Xəlil Rza.

İçin-için ovulsa da,
Nəsimi tək soyulsa da,
İmpreriya xislətinə,
Fəlakətdi Xəlil Rza.

Vətən üçün candan keçən,
Qandan qorxmaz igidlərə,
Ülvülərə, Babəklərə,
Davamətdi Xəlil Rza.

Boz sərçələr hay-küy salıb,
Yarasalar var-gəl edər,
Bayquşların ulaşması,
Bir adətdi, Xəlil Rza.

Torpaqsıza torpaq verdik,
Oba verdik, yaylaq verdik,
Yaxşılığa yamanlıq da,
Xəyanətdi, Xəlil Rza.

Vəhşi tanklar, yad ordular,
Qan içdilər qudurdular,
Qan içəni kim bağışlar,
Cinayətdi, Xəlil Rza.

Köksümüzdən yaralandıq,
Parçalandıq, paralandıq,
Bu nə çılğın, bu nə qırğın,
Ədavətdi, Xəlil Rza.

Ayağımızdan buxovlandıq,
Dilimizdən cilovlandıq,
Bu nə kirli, bu nə sirli,
Siyasətdi, Xəlil Rza?
Bu dünya ki, başdan-başa,
Rəyasətdi Xəlil Rza.

***

Vaqif bəydən məktub gəldi,
Oxudum – ünvanı gözəl,
Elan verib toy eləyir,
Bəzədib hər yanı gözəl.
İmamqulu, Nigar xanım,
Min nəfərlik süfrə açıb.
Şölət kirvə sağlıq deyir,
Kef çəkir mehmanı gözəl.

Rustavidən qubernator,
Yüz obadan mehman gəldi,
Məclisinə şair, aşıq,
Söz sərrafı, urfan gəldi.
Vasif bəyim fərman verdi,
Qara gözlü qurban gəldi,
Molla Nərman dua verdi,
Kəsildi qurbanı gözəl.

Mənim bəyim türk oğludu,
Dosta sadiq, vəfalıdı.
Doğma yurdu Kosalardı,
Ab-havası səfalıdı.
Var-dövləti Allah verib,
Qazandığı halalıdı.
Vaqif bəyin gül balası,
Bu toyun sultanı gözəl.

Ay-ulduzlu cami yapdı,
Qızıl zərlə naxışladı,
Haqq evini haqq yolunda,
Millətinə bağışladı.
Çoban Rəşid vəsf eylədi,
Vaqif bəyi alqışladı,
Yaradana qurban olum,
Yaradıb insanı gözəl.

Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Region PRESS
İctimai qəzet
№02 (177) 31.01.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

*Uzun bir mübahisə hər iki tərəfin də haqsız olduğunun dəlilidir.*
**Volter**

## Musiqi notunun yaranma tarixi

***Pifaqorun musiqinin içindəki riyaziyyatı bir dəmirçi dükanının qarşısından keçərkən kəşf etdiyi rəvayət edilir.***

Dəmirçi ustasının dəmir döyərkən istifadə etdiyi alətlərə görə dəyişik səslər çıxarması Pifaqorun marağını çəkmiş, dükanı bağlatdıraraq ustaya müxtəlif alətlər istifadə etdirmiş, çıxan səsləri araşdırmış və qeydlər götürmüşdür.



Qərb musiqisi IX əsrin əvvəlinə qədər notlardan xəbərsiz idi. Əsərlər qulaq yoluyla nəsildən nəsilə ötürülür, bu vaxt dəyişikliyə uğrayır, zamanla unudula bilirdi. IX əsrin ikinci yarısında ilk notlama sistemi ortaya çıxdı.

Arezzolu Guidonun Guid Arezzo notlama sisteminin səslərin yüksəkliyini qəti olaraq ifadə etməyə başlamasıyla böyük bir irəliləmə qeyd edildi. XI əsrdə notların üzərinə düzüldüyü beş xəttdən ibarət yaranan portenin istifadə edilməsiylə notların yüksəkliyi do, re, mi, fa, sol, lya, si və müddəti birlik, ikilik, dördlük,…. qəti şəkildə təyin oluna bilən hala gəldi.

## Marneulidə yeni şadlıq sarayının açılışı olub




Marneulidə "Qızıl Tac" adlı yeni şadlıq sarayı istifadəyə verilib. Şadlıq sarayının açılışında Marneuli Rayon İcra Hakimiyyətinin başçısı Merab Topçişvili, onun müavini Kamandar İsmayılov və ziyalılar, qonaqlar, iş adamları iştirak ediblər. Min nəfərlik yerə malik olan şadlıq sarayı iki mərtəbəlidir. Burada toy şənlikləri, müxtəlif rəsmi tədbirlər və ad günləri keçirmək olar. Şadlq sarayında Azərbaycan və gürcü milli yeməkləri hazırlamaq üçün istənilən şərait var. Qış aylarında şadlıq evi isidilir, yay aylarında isə sərinlənmək üçün sərinlik sistemi quraşdırılıb. Şadlıq sarayı iş adamları Şahin Balakişiyev, Anar Sadıqov və Elxan Allahverdiyevin maliyyə dəstəyi ilə tikilib.

Yeri gəlmişkən, bu şadlıq sarayında ilk olaraq səadət toylarını qeyd edən Yelena Həsənova və Ramin Babayevi ürəkdən təbrik edir, ailə xoşbəxtliyi, bol-bol sevinc arzulayırıq.

**RegionPress**

## BAŞSAĞLIĞI

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi sabiq məktəb direktoru
**Kələyev Qədir Kərim oğlunun**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi el şairi ***Əli Qəmliyə*** bacısı
**Güllü Qaib qızının**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Mərkəzin “Sarvan” folklor rəqs ansamblının bədii rəhbəri
***Cəmilə Məmmədovaya*** atası, qocaman jurnalist və maarif işçisi
**Səttar Məmmədovun**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Marneuli rayon Sakrebulosunun sədri
***Nəbi Abdullayevə*** qardaşı
**Mirzə Sədi oğlunun**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi İrəvan Dövlət Dram Teatrının direktoru ***İftixar Piriyevə*** anası
**Zərifə xanım Piriyevanın**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

## Barmaqlar nədən şaqqıldayır, bilirsinizmi?

***Ən çox hərəkətli olan oynaqlarda sümüklərin birləşdiyi yerdə kapsullar olur.***



Kapsulların içərisində ərimiş halda oksigen, azot, karbon-dioksid qazları vardır. Məhz barmaqlar gərilərkən bu qazlar partlayır və bizbu partlayışın səsini eşitmiş oluruq.

Fikir vermisinizsə, bir barmağı arxa-arxaya şaqqıldatmaq olmur, çünki bu qazlar kapsuldan çıxdıqdan sonra onların təzədən əmələ gəlməsi üçün müəyyən qədər vaxt lazımdır.

## Nəsli kəsilmiş heyvanlar geri qayıdır

***Yapon alimləri nəsli kəsilmiş heyvanların klonlarını yaratmağa hazırlaşırlar.***

İndiyədək yalnız canlı hüceyrələrin klonlarını yaradan alimlər indi də nəsli kəsilmiş heyvanları yenidən yaratmaq barədə fikirləşirlər. Belə ki, yaponiyalı alimlər 16 il dondurulmuş halda saxlanılan siçanın DNT-sindən klon yaradıblar. Bu da bir zamanlar donmuş halda tapılan mamontların yenidən "həyata qaytarılmasına" ümidləri artırıb.



Buz kristalları DNT-yə zərər verdiyi üçün klonlaşmanı çətinləşdirsə də, alimlər ümidlərini itirməyərək Rusiyada tapılan donmuş mamont balasının cəsədi üzərində tədqiqatlarını davam etdirirlər.

Yaponiyalı mütəxəssis Teruhiko Vakayamanın "National Academy of Sciences" jurnalında dərc edilən məqaləsində deyilir:

"Siçanlar üzərində apardığımız tədqiqatlarda donmuş hüceyrələrin klonlaşmasının mümkünlüyünün şahidi olduq. Bu tədqiqat nəsli kəsilən heyvan növlərinin yenidən həyata qaytarılmasını təmin edə bilər".

## İnsanlar dırnaqlarını niyə yeyirlər?

***Hər gün ətrafımızda dırnaqlarını yeyən bir neçə adama rast gəlirik. Bu pis vərdişdən yaxasını qurtarmaq istəyən çoxdur, amma çətinlik çəkənlər də az deyil. Lakin bu çarəsiz bir dərd deyil.***



Psixoloqlar bu vərdişin ağırlıq dərəcələrinin olduğunu deyirlər. Dırnaq yemə kimi pis vərdişlər yalnız kosmetik problem deyil, həm də psixoloji pozuntulardan xəbər verir. Dırnaq yemək vərdişi onixofagiya adlanır. Bu xəstəlik dırnağı yeyərək qanadıb, formasını pozmağa qədər aparır. Orta dərəcəli dırnaq yemə xəstəliyi dırnaqları qayçı istifadə etmədən dişlə qısaltmaq sayılır. Dırnağın üst hissəsini yeyərək tamamilə çıxarmaq, yumşaq hissəsinə kimi çatmaq isə vərdişin ağır dərəcəli olmasından xəbər verir. Bu halda həmin şəxs öz barmaqlarını və dırnaqlarını dişi ilə deformasiyaya uğradır və nəticədə özünə ziyan verir. Bu vərdiş əsasən uşaqlıq və yeniyetməlik dövründə başlayır. Tədbir görülməzsə yeniyetməlikdən sonrakı dövrdə də insanı müşayiət edir. Bəzi adamlarda isə bu, məhz gənclik dövründə ortaya çıxır. Buna qayğıların artması və sosial münasibətlərdə yaranan gərginliklər səbəb ola bilər.

Araşdırmalar göstərir ki, dırnaq yemək stressli və ya həyəcanlı vaxtlarda yaranır. Eyni zamanda sıxıntı və boşluq yaşayan insanlar da dırnağını yeməyə başlaya bilər. Dırnaq yemək vərdişinin fiziki zərərlərindən əlavə mənfi sosial nəticələri də var. Belə ki, dırnağını yeyənlər ətrafdakıların ürəyini bulandırar və nəticədə ətrafdakı insanlar onlardan uzaqlaşar. Onixofagiya bir çox hallarda kosmetik problem kimi qələmə verilir və ciddiyətinə varılmır. Lakin bu alışqanlıq psixoloji kökənlidir və mütləq psixoloqa müraciət olunmalıdır.




*Sarışın qız avtobusda gedir və radioya qulaq asır.*
*Radio:*
*-Siz 101 FM-ə qulaq asırsınız!*
*Sarışın qız:*
*- Aaa, bunlar haradan bildilər ki, mən 101 FM-ə qulaq asıram?!*

***

*Qadın çığır-bağırla polis bölməsinə daxil olur:*
*-Ərimi tapın, mən onsuz yaşaya bilmirəm, o isə itib.*
*-Bu nə vaxt baş verib?*
*-Bir həftə əvvəl.*
*-Bəs, indi niyə xəbər verirsiz?*
*-Bu gün onun maaş günüdür.*

*Təsisçi:* *Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)*
*AMM-in sədri:* **Fazil HƏSƏNOV**
*Redaktor:* **Binnət ƏLİOĞLU**
*Məsul katib:* **İbrahimxəlil**
*Texniki redaktor:* **Əkrəm QƏHRƏMANOV**
*Kompyuter tərtibatçısı:* **Bahar MƏMMƏDOVA**
*Redaksiyanın ünvanı:*
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM
**Qeydiyyat şəhadətnaməsi: 09.09.2004. №43/5 z—9**
Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
**TİRAJ: 2000**